YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
06 yanvar 2026-cı il, çərşənbə axşamı
№ 001 (7068)
Qiyməti 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!

# Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibə verib





# Azərbaycan-ABŞ münasibətlərində yeni səhifə

Bax səh. 3

# İlham Əliyev: Tarixi Zəfərimiz bizimlə əbədi olacaq!

## Xalqımız üçün uğurlu il

Bax səh. 2

# Dilindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq...

Bax səh. 3




## Çini Avropa ilə birləşdirən polad magistral

Bax səh. 5

## Vətəndən kənarda vətən olmaq...

Müasir dövrdə diaspor quruculuğu hər bir dövlətin milli maraqlarının qorunması və beynəlxalq aləmdə mövqelərinin möhkəmləndirilməsi baxımından mühüm strateji istiqamətlərdən birinə çevrilib. Xüsusilə xarici ölkələrdə yaşayan soydaşlarımızın təşkilatlanması, onların vahid məqsəd ətrafında birləşməsi və fəal ictimai mövqe tutması dövlət-diaspor münasibətlərinin əsasını təşkil edir. Bu prosesdə xarici ölkələrdə keçirilən görüşlər xüsusi rol oynayır.

Diaspor quruculuğu təkcə milli kimliyin qorunması deyil, eyni zamanda Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması missiyasını da daşıyır. Xarici ölkələrdə təşkil olunan görüşlər, konfranslar və dəyirmi masalar bu baxımdan mühüm platforma rolunu oynayır. Belə görüşlər zamanı diaspor nümayəndələri bir-biri ilə əlaqələrini gücləndirir, qarşılıqlı təcrübə mübadiləsi aparır və gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirirlər.

Eyni zamanda diaspor quruculuğu müasir dövrdə xalqların milli kimliyinin qorunması, beynəlxalq əlaqələrin möhkəmləndirilməsi...

Bax səh. 5

## Ötən il Azərbaycan uğurlu xarici siyasətini davam etdirib



Bax səh. 4

## "Tam Qətiyyət Əməliyyatı"...

Hazırda beynəlxalq gündəmin əsas mövzularından biri Venesuelada baş verən hadisələrdir. Yanvarın 3-də ABŞ Karakasdakı hərbi hədəflərə zərbələr endirib və həmin gün Venesuelada fövqəladə vəziyyət elan edilib. Bir müddət sonra ABŞ Prezidenti Donald Tramp Venesuelaya endirilən zərbələri, ölkə prezidenti Nikolas Maduronun və həyat yoldaşı Siliya Floresin əsir götürüldüyünü təsdiqləyib. CNN telekanalının məlumatına görə, hazırda onlar Nyu-Yorkun cənubundakı Bruklin həbsxanasında saxlanılır. Nyu-Yorkdakı venesuelalı immiqrantlar Nikolas Maduro və həyat yoldaşının ələ keçirilməsini bayram edirlər.

Xatırladaq ki, ABŞ Prezidenti narkotik ticarətinə son qoyulması üçün Maduroya dəfələrlə xəbərdarlıq etmişdi. Çünki bu problem Birləşmiş Ştatların milli təhlükəsizliyi üçün təhdid hesab olunurdu. Xəbərdarlıq nəticə vermədiyi üçün Vaşinqton belə bir əməliyyat keçirib.

Donald Tramp keçirdiyi mətbuat konfransında təhlükəsiz, düzgün və sağlam düşüncəli dəyişiklik baş verənə qədər Venesuelanı idarə edəcəklərini...

Bax səh. 6

## İranda etirazlar səngimir...

İranda etiraz aksiyaları və iğtişaşlar davam edir. Buna səbəb dolların bahalaşması fonunda milli valyutanın ucuzlaşmasıdır. Bu da əhalinin sosial durumuna ciddi təsir edir.

Qeyd edək ki, İranda İsraillə 12 günlük savaşdan sonra iqtisadi vəziyyət gərginləşib. Digər səbəb müharibəyə görə nüvə proqramı ilə bağlı İran-ABŞ danışıqlarının dayandırılmasıdır. Belə ki, bundan sonra Tehran Qərbin sanksiyaları ilə daha çox üzləşir. Bütün bunların fonunda dekabrın 28-i İranda, xüsusən də paytaxt Tehranda sahibkarların etiraz aksiyası başlayıb və güclənən nümayişlər bir neçə gündür davam edir. Təhlükəsizlik qüvvələri ilə etirazçılar arasında toqquşmalarda ölən və yaralananlar var. Etrazçılar ali dini lider Xameneinin portretlərini də yandırmaqdan çəkinməyiblər.

Yeri gəlmişkən, İsrail ilə 12 günlük müharibə zamanı həlak olanların ailələri ilə görüşdə Xamenei bildirib ki, milli valyutanın dəyərinin düşməsinə görə etirazlar əsaslıdır: "Sahibkarlar belə şəraitdə işləyə bilməyəcəklərini deyəndə...

Bax səh. 6

## Liberal dünya nizamının sonu



Bax səh. 7

## Notr-Dam üzərində savaş



Bax səh. 7



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibə verib. Müsahibənin icmalı və şərhi növbəti sayımızda dərc ediləcək.**

# İlham Əliyev: Tarixi Zəfərimiz bizimlə əbədi olacaq!

## Xalqımız üçün uğurlu il

Bu gün Azərbaycan tarixinin ən uğurlu dövrünü yaşayır. Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıllıqla həyata keçirilən siyasət ölkəmizi ildən-ilə yeni-yeni nailiyyətlərə qovuşdurur. Bu baxımdan artıq tarixə dönən 2025-ci il də istisna olmayıb. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində arxada qalan 2025-ci ili xalqımız üçün uğurlu il kimi səciyyələndirib.

Ayrı-ayrı istiqamətlərdə əldə olunan nailiyyətlərin miqyası həqiqətən kifayət qədər böyükdür və bütün bunlar perspektiv inkişaf üçün fundamental zəmin formalaşdırır. Ölkəmiz, xalqımız gələcəyə nikbin baxır. "Azərbaycan xalqı sülh, təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşamışdır. Xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas amilidir. Əminəm ki, qarşıdan gələn 2026-cı il də ölkəmiz üçün uğurlu olacaq, ölkə qarşısında duran bütün vəzifələr həmişəki kimi uğurla icra ediləcəkdir", - deyə dövlətimizin başçısı vurğulayıb.



## Şanlı Zəfərimizin beşinci ildönümü

Artıq tarixdə qalan 2025-ci ilin ən möhtəşəm hadisəsi, heç şübhəsiz ki, şanlı Zəfərimizin beşinci ildönümünün böyük fəxarət hissi ilə qeyd edilməsidir. "Beş il bundan əvvəl Vətən müharibəsi zamanı əldə etdiyimiz tarixi Zəfərimiz bizimlə əbədi olacaq" deyən Prezident İlham Əliyev vurğulayıb: "Azərbaycan xalqı bu Qələbə ilə əbədi olaraq fəxr edəcəkdir. Biz otuzillik erməni işğalına son qoyduq, ərazi bütövlüyümüzü, suverenliyimizi, milli ləyaqətimizi bərpa etdik".

Bu tarixi Qələbəni heç kim bizə hədiyyə etməyib. Onu igid hərbçilərimiz əzm, qətiyyət, yenilməz iradə nümayiş etdirərək bilavasitə döyüş meydanında qazanıblar. Zəfərimiz milli gücün, həmrəyliyimizin təntənəsidir. Azərbaycan xalqı və dövləti İkinci Qarabağ müharibəsindən əvvəlki mərhələdə heç vaxt ölkənin ərazi bütövlüyünün və suverenliyinin pozulması faktı ilə barışmayıb. Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi sayəsində işğal faktına son qoyulması, ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin edilməsi daim ölkə gündəminin mərkəzində saxlanılıb. Bu strateji xəttə uyğun olaraq Azərbaycan danışıqlar prosesində fəallıq göstərməklə yanaşı, həm də iqtisadiyyatını gücləndirməklə milli gücünü artırıb, müasir ordu quruculuğunu diqqət mərkəzində saxlayıb. Prezident İlham Əliyev hər bir qərarı, təşəbbüsü və addımı Azərbaycanı Qarabağın azadlığına yaxınlaşdırırdı. Dövlətimizin başçısı yüksək tribunalardan qətiyyətlə bildirirdi ki, Azərbaycan istənilən yolla ərazi bütövlüyünü təmin etməyə nail olacaq. Oldu da!

Ermənistanın təxribatlarına və növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün 2020-ci il sentyabrın 27-də Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu.

Vətən müharibəsində əldə olunan Qələbənin miqyası çox böyükdür. Ordumuz cəmi 44 gün ərzində düşməni kapitulyasiyaya məruz qoydu. Xatırladaq ki, uğurlu əks-hücum əməliyyatı nəticəsində 2020-ci il noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəkləri və daha 5 adsız yüksəklik işğaldan azad olunub. Bunun ardınca üçtərəfli Bəyanatın şərtlərinə uyğun olaraq noyabrın 10-dan sonrakı 20 gün ərzində 3 rayon - noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın bir güllə də atılmadan Azərbaycana təhvil verilib. 2022-ci avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürülüb. Bununla da ölkəmizin ərazi bütövlüyü hərbi-siyasi yolla təmin edilib.

44 günlük müharibədən sonra Azərbaycanın qarşısında duran ən mühüm vəzifə Qarabağda separatizm yuvasını dağıtmaq və ölkənin bütün ərazisində suverenliyimizin tam təmin edilməsinə nail olmaq idi. Bu ümummilli ideyanı isə Müzəffər Azərbaycan Ordusu 2023-cü il sentyabrın 19-20-də həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində reallaşdırmağa nail oldu. Ordumuz bu əməliyyatları yüksək peşəkarlıqla həyata keçirdi. Qarabağda separatizm yuvasını dağıtmaq üçün cəmi 23 saat kifayət etdi. 2023-cü il oktyabrın 15-də Xankəndidə Azərbaycan Bayrağının ucaldılması öz tarixi əhəmiyyətinə görə 44 günlük müharibədə qazanılan Zəfərə bərabər növbəti parlaq Qələbə idi. Qarabağda suverenliyi bərpa edən Azərbaycan bununla mahiyyət etibarı ilə 10 Noyabr Zəfərini tamamlamış oldu.

## Daha güclü Ordu quruculuğu

İlk baxışda elə təsəvvür yarana bilər ki, müharibə başa çatıb və daha Silahlı Qüvvələrin gücləndirilməsinin prioritetliyi arxa plana keçib. Ancaq yox! Prezident İlham Əliyev müraciətində dünyanın hazırkı narahatlıq doğuran mənzərəsinə xüsusi diqqət çəkib. Vurğulandığı kimi, bugünkü dünyada beynəlxalq hüquq normaları işləmir, "Kim güclüdür, o da haqlıdır" prinsipi əsas prinsip kimi bir çox ölkələr tərəfindən qəbul edilib. Bütün dünyada genişmiqyaslı silahlanma prosesi gedir. Belə olan halda, biz hər an öz ərazi bütövlüyümüzü, suverenliyimizi, öz seçimimizi layiqincə müdafiə etmək üçün hazır olmalıyıq. Dünyadakı hazırkı vəziyyət milli dövlətlər üçün çağırışlar yaradır.

Digər tərəfdən isə Ermənistanda İkinci Qarabağ müharibəsinin və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərinin nəticələrini qəbul etməyən qüvvələr var. Ermənistanda həm iqtidarda, həm də müxalifət daxilində olan həmin qüvvələr revanşizm əhval-ruhiyyəsindədirlər və çox aqressiv çağırışlar edirlər. Eyni zamanda, Ermənistan yenə də silahlanma yolu tutub. Sual olunur: Əgər bu ölkə sülh açıqlamalarında səmimidirsə, onda nə üçün Hindistandan, Fransadan ardıcıl olaraq silahlar alır? Bu silahların Azərbaycana tuşlana biləcəyinə heç bir şübhə yoxdur.

Bu kimi reallıqlar fonunda Azərbaycan üçün postmüharibə mərhələsində də çağırışlardan biri Ordunun daha da gücləndirilməsi ilə bağlıdır. Beləliklə, müharibə başa çatsa da, Silahlı Qüvvələrin döyüş hazırlığının yüksək səviyyədə saxlanılması yenə də öz prioritetliyini saxlayır.

Postmüharibə dövründə Ordumuzun gücləndirilməsi müxtəlif istiqamətlərdə həyata keçirilir. Silahlı Qüvvələrimiz İkinci Qarabağ müharibəsində XXI əsrin müharibəsini apardı. Döyüşlərdə yeni yanaşmaların, innovasiyaların tətbiqi və əlbəttə ki, şəxsi heyətin yüksək vətənpərvərliyi böyük Qələbəni təmin etdi. Azərbaycan postmüharibə dövründə ordu quruculuğunu İkinci Qarabağ müharibəsinin təcrübəsini nəzərə almaqla həyata keçirir. Silahlı Qüvvələr müasir tələblərə cavab verən silah-sursatla təminatı yenə də əsas vəzifələrdən biridir.

Azərbaycanın müdafiə potensialının gücləndirilməsində digər mühüm istiqamət struktur islahatlarını əhatə edir. Burada ilk növbədə NATO daxilində ikinci ən güclü orduya sahib olan Türkiyənin təcrübəsinə istinad edilir. Məsələn, postmüharibə dövründə bir sıra yeni silahlı birləşmələr, o cümlədən komando birlikləri yaradılıb və proses davam edir. Komando birlikləri istənilən hərbi vəzifəni icra etməyə qadirdir, çevikliyi ilə fərqlənir. Ötən il noyabrın 8-də Bakının Azadlıq meydanında Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə möhtəşəm Hərbi parad keçirildi. "Zəfərimizin beşinci ildönümünə həsr olunmuş hərbi paradda son illər ərzində ordu quruculuğunda görülmüş işlərin bir hissəsi xalqımıza və bütün dünyaya nümayiş etdirildi. Son 5 il ərzində Azərbaycan Silahlı Qüvvələri öz gücünü böyük dərəcədə artırmışdır. Yeni silahlar və texnika ilə təchiz edilmiş Ordumuz bu gün istənilən vəzifəni icra etməyə qadirdir", - deyə dövlətimizin başçısı qürur hissi ilə bildirib.

## Dünya Azərbaycanın yaratdığı reallıqları qəbul edir

Müraciətdə Prezident İlham Əliyev qalib Azərbaycanın niyyətinə bir daha diqqət çəkib. Dövlətimizin başçısının bildirdiyi kimi, biz əbədi müharibə aparmaq fikrində deyilik. Bizim başqa ölkələrin torpaqlarında gözümüz yoxdur. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək üçün silahdan istifadə edərək, BMT Nizamnaməsi çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz suveren hüquqlarımızı təmin etmişik.

Qalib Azərbaycan sülh niyyətində olduğunu müharibə başa çatandan dərhal sonra bütün dünyaya bəyan etdi. Bunun təsdiqi olaraq Azərbaycanın qarşı tərəfə göndərdiyi 5 bənddən ibarət sülh paketi beynəlxalq norma və prinsiplərə istinad olunmaqla hazırlanmışdı. Burada Azərbaycan qalib dövlət olaraq hansısa bir imtiyazlardan çıxış etməmişdi ki, bu da ölkəmizin sülh istəyində nə qədər səmimi olduğunu təsdiqləyir. Bundan sonra sülhyaratma prosesinə start verildi. Təəssüf ki, yenə də Ermənistanın və bu dövlətin havadarlarının manipulyasiyalara əl atmaları səbəbindən sülhyaratma prosesi rəvan şəkildə irəliləmədi və müəyyən zaman itkisinə yol verildi. Ancaq nəticə etibarı ilə Azərbaycanın iradəsi qalib gəldi və sülhyaratma prosesini ötən il avqustun 8-də Vaşinqtonda əldə olunan mühüm razılaşmalaradək irəlilətmək mümkün oldu. Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin, eləcə də ABŞ Prezidentinin iştirakı ilə hər iki ölkənin xarici işlər nazirləri tərəfindən paraflanan "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in mətnində əsas müddəalardan biri ərazi bütövlüyü ilə bağlıdır. Azərbaycan və Ermənistan bir-birinin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq sərhədlərin toxunulmazlığını və siyasi müstəqilliyini tanıyır və hörmət edirlər. Eyni zamanda tərəflər birbirinə qarşı hər hansı ərazi iddialarının olmadığını və gələcəkdə belə iddialar qaldırılmayacağını təsdiq edirlər.

Beləliklə, onilliklər ərzində işğalçılıq siyasətindən əziyyət çəkən Cənubi Qafqaz coğrafiyasında yeni bir dönəm başlayıb. İndi bu coğrafiya Azərbaycanın iradəsi və yaratdığı reallıqlar sayəsində heç vaxt olmadığı qədər sülhə yaxındır. Eyni zamanda, Azərbaycan və Ermənistanın ötən il avqustun 8-də ATƏT sədrliyinə birgə müraciətindən sonra ATƏT Nazirlər Şurasının 1 sentyabr 2025-ci il tarixində qəbul edilmiş qərarına uyğun olaraq, 30 noyabr 2025-ci il tarixində Minsk Prosesi və onun əlaqədar strukturlarının bağlanması yekunlaşıb. Vətən müharibəsindən sonra de-fakto mövcud olmayan qurumun de-yure ləğvinə gedən yolda 5 il zaman itirilsə də, ilahi ədalət öz yerini tapdı. Artıq Minsk qrupunun tabutuna son mismar vurulub. Qurumun ləğvi Azərbaycan diplomatiyasının növbəti uğurudur. "Biz Vətən müharibəsindəki Zəfərimizdən sonra yorulmadan bu Zəfəri beynəlxalq və siyasi müstəvidə möhkəmləndirmək və təsdiqləmək üçün çalışmışıq və buna nail olmuşuq. Bütün dünya bizim Zəfərimizi qəbul edir və bizim haqlı olduğumuzu əyani şəkildə görür. Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün mandat almış Minsk qrupu isə tarixin arxivinə göndərildi. Beləliklə, Qarabağ münaqişəsi artıq beynəlxalq gündəlikdən tamamilə silinmişdir", - deyə Prezident İlham Əliyev bildirib.

## Bu gün Azərbaycana dünyada böyük hörmətlə yanaşırlar

Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmlənməsi baxımından daha iki mühüm hadisəyə də diqqət çəkmək istərdik. Bunlardan biri ölkəmizin D-8 beynəlxalq təşkilatına üzv qəbul edilməsidir. D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı 8 müsəlman ölkəsini birləşdirir. Təşkilatın təməli Türkiyənin təşəbbüsü ilə 1996-cı il oktyabrın 22-də İstanbulda Banqladeş, İndoneziya, İran, Malayziya, Misir, Nigeriya və Pakistanın əməkdaşlığı ilə təşkil edilən İnkişaf Əməkdaşlıq Konfransında qoyulub. Azərbaycan 2024-cü il dekabrın 19-da D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv qəbul edilib. Respublikamızın yekdilliklə D-8-in üzvlüyünə qəbul edilməsi İslam səkkizliyinin tarixində ilk genişlənmə idi. Bu fakt İslam dünyasında Azərbaycanın nüfuzunun artmasının göstəricisidir.

Ötən ildə isə Azərbaycan Orta Asiya ölkələrinin Məşvərət Şurasının tamhüquqlu üzvü seçilib. Bunu tarixi uğur kimi səciyyələndirən dövlətimizin başçısı vurğulayıb: "...Coğrafi nöqteyi-nəzərdən biz Cənubi Qafqazda yerləşirik. Ancaq Orta Asiya ölkələrinin Məşvərət Şurasına yekdilliklə tamhüquqlu üzv seçilməyimiz bizim həm bu ölkələrlə səmimi münasibətlərimizdən xəbər verir, həm də ki, Azərbaycanın bu gün nə qədər önəmli ölkə olduğunu əyani şəkildə göstərir".

Prezident İlham Əliyev müraciətində Azərbaycanın beynəlxalq nüfuzunun artmasından məmnunluğunu ifadə edib. Bu xüsusda fikirlərini diqqətə çatdıran dövlətimizin başçısı "Bu gün Azərbaycana dünyada böyük hörmətlə yanaşırlar. Təsadüfi deyil ki, dünyanın aparıcı beynəlxalq aktorları Azərbaycanla əməkdaşlıq etmək üçün müxtəlif təkliflər irəli sürürlər. Bizim xarici siyasətimiz çoxşaxəlidir, bu siyasət bir çox istiqamətlər üzrə uğurla aparılır",- deyə bildirib.

Bəli, bu gün Azərbaycan dünyada dialoq məkanı kimi tanınır. Ölkəmiz davamlı olaraq qlobal həmrəyliyin gücləndirilməsinə hesablanan təşəbbüslər irəli sürür, həmçinin dünya gündəliyinin aktual məsələlərinin müzakirə olunduğu mühüm beynəlxalq tədbirlərə məmnuniyyətlə ev sahibliyi edir. Ölkəmizin böyük məsuliyyətlə ev sahibliyi etdiyi COP29 konfransında bir sıra önəmli substantiv nəticələr əldə olundu. COP29-dan sonra gələn il ölkəmizdə daha bir mötəbər beynəlxalq tədbirin keçirilməsi gözlənilir. Söhbət 2026-cı il 17-22 may tarixində Bakı şəhərində keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasından (WUF13) gedir. Dünyanın nəzərləri yenidən Azərbaycana yönələcək, müasir dövrdə qlobal şəhərsalma çağırışları ölkəmizdə müzakirə olunacaq.

## "Böyük Qayıdış" Proqramı uğurla icra edilir

Azərbaycan tarixi uğurlarını özünün iqtisadi gücünə əsaslanaraq qazanıb. İqtisadi müstəqilliyimiz həmçinin siyasi müstəqilliyimizin qarantıdır. Bu gün Azərbaycan heç bir güc mərkəzindən, beynəlxalq maliyyə qurumundan asılı deyil. Buna görə də müstəqil siyasət həyata keçirir. Ölkəmizin qərarları hansısa uzaq paytaxtlarda deyil, məhz Bakıda, Prezident İlham Əliyev tərəfindən imzalanır. Biz, Prezident İlham Əliyevin bildirdiyi kimi, ötən il iqtisadi inkişafda əldə olunan uğurlarla fəxr edə bilərik. Bizim valyuta ehtiyatlarımız tarixi rekord həddə çatıb - 80 milyard dollardan artıqdır. Hazırda respublikamız dünya üzrə xarici borcu ən aşağı səviyyədə olan ölkələr sırasında yer alır. Belə ki, hazırda Azərbaycanın xarici borcu ümumdaxili məhsulun cəmi 6,3 faizini təşkil edir. Müqayisə üçün bildirək ki, bəzi inkişaf etmiş ölkələrdə bu rəqəm 100 faiz, hətta bundan daha çoxdur. Ölkəmizin valyuta ehtiyatları xarici borcumuzu 16 dəfə üstələyir və təsadüfi deyil ki, dünyanın aparıcı reytinq agentlikləri Azərbaycanın investisiya reytinqini müsbət reytinq səviyyəsinə qaldırıblar.

Qalib Azərbaycan belə güclü iqtisadi potensiala əsaslanmaqla işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq-bərpa işləri həyata keçirir. Erməni vandalları tərəfindən vəhşicəsinə dağıdılmış şəhər və kəndlər müasir yanaşmalar əsasında tamamilə yenidən qurulur. Göz önündə yeni bir Qarabağ formalaşır. Azərbaycan bu yerləri dünyanın ən gözəl məkanına çevirmək əzmindədir. Bəhs olunan ərazilərdə görülən işlərdən məmnunluğunu bildirən Prezident İlham Əliyev vurğulayıb: "Biz "Böyük Qayıdış" Proqramını uğurla icra edirik və işğaldan azad edilmiş ərazilərdə bu gün böyük quruculuq işləri aparılır və artıq 70 minə yaxın insan orada yaşayır, çalışır, təhsil alır. Keçmiş köçkünlər 32 kənd, qəsəbə və şəhərdə yerləşiblər və onlar üçün ən gözəl şərait yaradılmışdır".

*Mübariz ABDULLAYEV*

# Dilindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq...

## Azərbaycanın pravoslav xristian icmasına



**Hörmətli həmvətənlər!**

Sizi və Azərbaycanın bütün xristian icmasını müqəddəs Milad bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Azərbaycanda yüz illərdir ki, ayrı-ayrı xalqlar və etiqadlar arasında qarşılıqlı hörmət və etimada, mehriban dostluq və qardaşlığa əsaslanan milli-mənəvi həmrəylik mühiti hökm sürür.

Cəmiyyətimizdə yüksək birgəyaşayış mədəniyyətinin, mənəvi-əxlaqi normaların, multikultural dəyərlərin və dözümlülük prinsiplərinin təbliği və təşviqi həyata keçirdiyimiz dövlət siyasətinin prioritet xəttini təşkil edir.

Zəngin tolerantlıq ənənələri ilə tanınan Azərbaycanda bu gün hər kəs mədəni özünüifadə imkanlarına malikdir. Dilindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq, ölkəmizin bütün vətəndaşlarına, o cümlədən xristian icmasına etnikmədəni özünəməxsusluğunu qoruyub saxlamaq və daha da inkişaf etdirmək üçün hərtərəfli demokratik-hüquqi şərait yaradılmışdır. Təqdirəlayiq haldır ki, xristian həmvətənlərimiz ictimai-siyasi, sosial-mədəni həyatımızın bütün sahələrində yaxından iştirak edir, ümumi evimiz Azərbaycanın tərəqqisi və çiçəklənməsi naminə səylərini əsirgəmirlər.

Milad bayramı yeniliyi, paklığı, mərhəmət və xeyirxahlıq kimi ülvi hissləri özündə təcəssüm etdirir. Bu əziz gündə bir daha hamınıza bayram təbriklərimi çatdırıram, ailələrinizə səadət, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 5 yanvar 2026-cı il**

# Azərbaycan-ABŞ münasibətlərində yeni səhifə

Ağ Evin yeni administrasiyası ilə rəsmi Bakı ikitərəfli münasibətləri qarşılıqlı maraqlar əsasında inkişaf etdirməkdə maraqlıdırlar. Bunun təsdiqi olaraq iki ölkə rəsmiləri arasında müntəzəm görüşlər keçirilir və aktual müzakirələr aparılır. Bu günlərdə Prezident İlham Əliyev ABŞ Senatının Silahlı Qüvvələr Komitəsinin üzvü, Oklahomadan respublikaçı senator Markveyn Mallinin, Nümayəndələr Palatasının üzvü və həmin qurumun Gəlirlər Komitəsinin sədri, Missuridən respublikaçı Ceyson Smitin, Nümayəndələr Palatasının və həmin qurumun Silahlı Qüvvələr Komitəsinin üzvü, Texasdan respublikaçı Ronni Ceksonun, Nümayəndələr Palatasının və həmin qurumun Gəlirlər Komitəsinin üzvü, Kaliforniyadan demokrat Cimmi Panettanın daxil olduğu nümayəndə heyətini qəbul edib. Görüşdə ikitərəfli münasibətlərin müxtəlif aspektlərinə diqqət çəkilib və siyasi dialoqun hazırkı səviyyəsindən məmnunluq ifadə olunub.



## ABŞ sülh prosesinə real töhfə vermək istəyir

Keçmiş Bayden administrasiyası dönəmində məhz qarşı tərəfin ədalətsiz və qərəzli yanaşmaları səbəbindən ABŞ - Azərbaycan münasibətlərində ciddi çatlar yaranmışdı. Ağ Evdə Bayden administrasiyası əvəzləndikdən sonra isə vəziyyət dəyişib. Deyə bilərik ki, qarşılıqlı münasibətlərdə yeni səhifə açılıb. Burada Azərbaycan Prezidenti İlham Əliyevlə ABŞ Prezidenti Donald Trampın bir-birinə rəğbətinin önəmini ayrıca qeyd etmək yerinə düşər. Xatırladaq ki, ABŞ-da seçki marafonu dönəmində Prezident İlham Əliyev prezidentliyə namizəd olan Donald Tramp barəsində müsbət fikirlər ifadə etmişdi. Öz növbəsində Donald Tramp ABŞ-ın Prezidenti seçildikdən sonra Azərbaycanın dövlət başçısına bir neçə dəfə xoşməramlı jestlər edib. Xatırlayaq ki, D.Tramp Prezident İlham Əliyevin III Şuşa Qlobal Media Forumundakı çıxışından bir parçanı özünün sosial şəbəkə hesabında paylaşıb. Bu, adi bir hadisə deyil. D.Tramp supergüc dövlətin rəhbəridir, dünyanın gözü ondadır. O isə sosial şəbəkə hesabında kiçik Azərbaycanın dövlət başçısının çıxışından bir hissəni paylaşır. Bundan başqa Donald Tramp beynəlxalq tədbirlərin birində Azərbaycan Prezidentini "Böyük lider" adlandırıb. Bütün bunlar o anlama gəlir ki, okeanın o tayında Azərbaycan həqiqətlərinə diqqət var və bu həqiqətlər qəbul olunaraq təqdir və təşviq edilir.

Azərbaycan-ABŞ münasibətlərində keyfiyyətcə yeni səhifənin açılmasından bəhs edərkən ötən il avqustun 8-də Vaşinqtonda, Ağ Evdə, dünyanın bir nömrəli ofisində keçirilən görüşü xatırlamaq yerinə düşər. Azərbaycan, Ermənistan və ABŞ liderlərinin iştirakı ilə keçən bu görüşdə mühüm razılaşmalar əldə olundu. O cümlədən Azərbaycanla Ermənistan arasında yekun sülh sazişi xarici şlər nazirləri tərəfindən paraflandı, Minsk qrupunun ləğvi ilə bağlı ATƏT-ə müraciət ünvanlandı, həmçinin TRIPP marşrutunun (Zəngəzur dəhlizinin) yaradılması razılaşdırıldı. Bütün bunlar onu deməyə əsas verir ki, Ağ Evin yeni administrasiyası Cənubi Qafqazda sülhün bərqərar olmasında maraqlıdır və prosesə real töhfə vermək istəyir. Yeri gəlmişkən, qəbulda Vaşinqtonda əldə olunmuş razılaşmaların tarixi əhəmiyyət daşıdığını deyən dövlətimizin başçısı bu məsələdə ABŞ Prezidenti Donald Trampın rolunu xüsusi vurğulayıb. Azərbaycan Prezidenti regional sülh gündəliyinin irəli aparılması üçün ölkəmizin bundan sonra da səylərini davam etdirəcəyini bildirib. Dövlətimizin başçısı artıq Azərbaycanla Ermənistan arasında ticarət münasibətlərinin yaradıldığını deyərək, bu xüsusda Azərbaycanın neft məhsullarının Ermənistana ixrac edildiyini, həmçinin Qazaxıstan və Rusiyadan buğdanın Azərbaycan ərazisindən keçməklə Ermənistana ixracının həyata keçirildiyini vurğulayıb. Prezident İlham Əliyev TRIPP dəhlizinin regional nəqliyyat bağlantıları baxımından yeni imkanlar yaradacağına ümidvarlığını bildirib.



## Strateji tərəfdaşlığa doğru

Azərbaycan- ABŞ münasibətlərində yeni səhifənin açılmasını təsdiqləyən ən önəmli faktlardan biri isə ötən il avqustun 8-də Vaşinqtonda iki ölkənin prezidentləri tərəfindən "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu"nun imzalanmasıdır. Bu sənədin böyük əhəmiyyəti var. Sözügedən sənəddə gələcək əməkdaşlıq istiqamətləri açıq-aydın təsbit edilib. Bu sırada aşağıdakıları sadalamaq mümkündür:

- Qarşılıqlı sərmayə qoyuluşu,
- Nəqliyyat bağlantılar, təhlükəsizlik, süni intellekt sahəsində əməkdaşlıq,
- Müdafiə sənayesi və müdafiə sahələri üzrə qarşılıqlı fəaliyyətlər və s.

Vaşinqtonda imzalanan sənəd qarşıda geniş perspektivlər açır. Artıq Prezident İlham Əliyevin göstərişi əsasında Azərbaycan tərəfini təmsil edən tərkib müəyyən olunub. Respublikamız bir sıra təkliflər irəli sürmək niyyətindədir və müzakirələrə start verilib. 19 dekabr 2025-ci il tarixində Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üzrə Strateji İşçi Qrupunun onlayn formatda tam tərkibdə ilk iclası keçirilib. Strateji İşçi Qrupa Azərbaycan tərəfdən xarici işlər nazirinin müavini Elnur Məmmədov, ABŞ tərəfdən Dövlət katibinin köməkçisinin müavini Sonata Koulter rəhbərlik edib.

İclas zamanı 8 avqust Vaşinqton Sülh Sammiti çərçivəsində iki dövlət arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üzrə Anlaşma Memorandumu çərçivəsində prioritet elan edilmiş enerji, ticarət və tranzit daxil olmaqla regional bağlantılar, süni intellekt və rəqəmsal infrastruktur daxil olmaqla iqtisadi sərmayə, eləcə də müdafiə, təhlükəsizlik və terrorla mübarizə kimi sahələrdə ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib. 8 avqustdan sonra qeyd edilən sahələr üzrə ayrı-ayrılıqda aparılmış ikitərəfli təmaslar və müzakirələr yüksək qiymətləndirilib. Bu və digər mühüm sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq istiqamətlərini müəyyən edəcək Strateji Tərəfdaşlıq Xartiyasının mətni üzrə fikir mübadiləsi aparılıb və sənədin qısa müddət ərzində razılaşdırılmasının əhəmiyyəti vurğulanıb.

## Ədalətsiz 907-ci düzəliş ikitərəfli əlaqələrin bugünkü inkişafının mahiyyətinə uyğun deyil

Görüşdə diqqət çəkilən məsələlərdən biri də bədnam 907-ci düzəlişlə bağlı olub. Dövlətimizin başçısı "Azadlığa Dəstək Aktı"na ədalətsiz 907-ci düzəlişin ölkələrimiz arasında əlaqələrin bugünkü inkişafının mahiyyətinə uyğun olmadığını deyib. Xatırladaq ki, Konqres tərəfindən 1992-ci ildə qəbul edilmiş "Azadlığa dəstək aktı" qanunu sosialist sistemin dağılmasından sonra öz müstəqilliyini elan etmiş dövlətlərə ABŞ tərəfindən yardımın göstərilməsini ehtiva edib. Lakin 1992-ci ilin oktyabr ayında ABŞ-da erməni lobbisinin təsiri altında qəbul olunan "Azadlığa dəstək Aktına 907-ci düzəliş" adlı sənəd Vaşinqton-Bakı münasibətlərinin inkişafında mənfi rol oynayıb. O zaman təbii ki, Konqres üzvlərinin Azərbaycandan, Cənubi Qafqazda baş verənlərdən xəbəri yox idi. Onlar erməni lobbi qruplarının təsiri altına düşüb və qurban Azərbaycanı işğalçı kimi təqdim edirdilər. Beləliklə, bu düzəliş bizi həmin o illərdə çox ehtiyac duyduğumuz birbaşa Amerika yardımından məhrum etmişdir. O vaxt Azərbaycan qaçqınların sayı çox, iqtisadiyyatı isə bərbad vəziyyətdə olan kasıb ölkə idi. Nəticədə, biz sanksiyalar altında olan yeganə keçmiş Sovet İttifaqı respublikası idik. Sonra 2001-ci ildə bu sanksiyalar dayandırıldı, çünki ABŞ hökumətinin Əfqanıstanda Azərbaycanın köməyinə ehtiyacı var idi. Biz isə çox vacib nəqliyyat yollarını, "Şimal Paylayıcı Şəbəkə" adlanan əlaqəni təmin etdik. Bu, təkcə hava uçuşları deyil, həm də quru və dəniz nəqliyyatını əhatə edirdi. Sonra hər il Amerika prezidentləri bu düzəlişin qüvvəsini dayandırırdılar. Bu ənənənin 2023-cü ildən etibarən Bayden administrasiyası tərəfindən pozulması ölkəmiz üçün gözlənilməz oldu. Bundan sonra bizə qarşı sanksiyalar yenidən qüvvəyə mindi. Bu, keçmiş administrasiyanın Azərbaycana mənfi münasibətinin və nankorluğunun zirvəsi idi.

İndi Azərbaycan güclü dövlətdir. İqtisadiyyatını inkişaf etdirib, ölkəmizin beynəlxalq maliyyə qurumlarının dəstəyinə heç bir ehtiyacı yoxdur, öz problemlərimizi özümüz həll edirik. Belə bir vəziyyətdə 907-ci düzəlişin dondurulmasına və "Azadlığa dəstək aktı" çərçivəsində respublikamıza ABŞ-dan yardım ünvanlanmasına bir o qədər də böyük ehtiyac yoxdur. Ancaq Vaşinqtonda bəhs olunan görüş çərçivəsində Prezident Donald Tramp tərəfindən 907-ci düzəlişin müvəqqəti dayandırılması rəmzi məna daşıyır. Qəbulda Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Tramp tərəfindən bu düzəlişin fəaliyyətinin dayandırılmasını yüksək qiymətləndirərək, onun tamamilə ləğv edilməsi istiqamətində Konqres üzvlərinin də bundan sonra səylərini davam etdirəcəyinə ümidvar olduğunu vurğulayıb.

## Müdafiə sahəsində əlaqələrin inkişaf məsələləri müzakirə edilib

Yanvarın 4-də Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Amerika Birləşmiş Ştatlarının Senatının Silahlı Qüvvələr Komitəsinin üzvü cənab Markveyn Mallin və Nümayəndələr Palatasının digər üzvləri ilə görüşüb.

Müdafiə Nazirliyində təşkil edilən görüşdə general-polkovnik Z.Həsənov Azərbaycan ilə ABŞ arasında əlaqələrin mövcud vəziyyətindən razılığını ifadə edib, bu əlaqələrin ölkələrimiz üçün xüsusi əhəmiyyət daşıdığını bildirib.

Cənab M.Mallin isə öz növbəsində qarşılıqlı səfərlərin, müxtəlif formatlarda keçirilən görüşlərin əlaqələrimizin genişləndirilməsində səmərəli olduğunu vurğulayıb.

Görüşdə Azərbaycanla ABŞ arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığın cari vəziyyəti, yeni imkanlar və inkişaf perspektivləri müzakirə olunub, həmçinin qarşılıqlı maraq doğuran bir çox digər məsələlər barədə geniş fikir mübadiləsi aparılıb.

*Mübariz FEYİZLİ*



Nardar BAYRAMLI

# Ötən il Azərbaycan uğurlu xarici siyasətini davam etdirib

2025-ci ildə beynəlxalq münasibətlər sistemində artan geosiyasi gərginliklər, qlobal təhlükəsizlik arxitekturasında baş verən dəyişikliklər və qeyri-müəyyənliklər fonunda, daxili sabitlik və davamlı inkişafa arxalanan Azərbaycan Respublikası beynəlxalq hüququn norma və prinsipləri əsasında Azərbaycan Respublikası Prezidentinin qətiyyətlə yürütdüyü müstəqil və praqmatik xarici siyasət kursunu uğurla davam etdirib. Bunu Xarici İşlər Nazirliyinin ötən il üzrə mətbuat buraxılışından da görmək mümkündür.

**Sülh yolunda mühüm irəliləyiş**

Belə ki, Azərbaycanın milli maraqlarının təmin olunması məqsədilə ölkəmiz dəyişən geosiyasi şəraitdə çevik, məsuliyyətli və konstruktiv diplomatiya həyata keçirərək ikitərəfli və çoxtərəfli münasibətlərində əməkdaşlıq mexanizmlərini gücləndirib, beynəlxalq səviyyədə nüfuzunu və təsir imkanlarını nəzərəçarpacaq dərəcədə artırıb. Şanlı zəfərimizin, ərazi bütövlüyümüzün və tarixi ədalətin bərpasının 5 illiyinin qeyd olunduğu 2025-ci ildə regionda dayanıqlı və qalıcı sülhün bərqərar edilməsi üçün yaranmış tarixi fürsətlərdən istifadə edərək, Azərbaycan və Ermənistan arasında suverenlik və ərazi bütövlüyü prinsipləri əsasında münasibətlərin normallaşdırılması ölkəmizin regiondakı siyasətinin əsas istiqamətlərindən biri olub.

8 avqust 2025-ci il tarixində Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə Vaşinqtonda baş tutmuş Zirvə görüşündə Azərbaycan və Ermənistan liderləri tərəfindən, habelə şahid qismində ABŞ Prezidenti tərəfindən imzalanmış Birgə Bəyannamə, habelə "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş" layihəsinin paraflanması və digər razılıqlar bölgəmizdə yeni geosiyasi reallıqların formalaşmasına, regionda dayanıqlı sülh və inkişaf üçün əlverişli şəraitin yaranmasına imkan verib. Vaşinqton Sammitində həmçinin Azərbaycan Respublikasının əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsini nəzərdə tutan "Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutu" (TRIPP) layihəsi üzrə razılıq əldə edilib. Bununla yanaşı, ATƏT-in Minsk Prosesinin və əlaqədar strukturların bağlanmasına nail olunub, bununla Ermənistan ilə Azərbaycan arasındakı münaqişənin beynəlxalq gündəlikdən çıxarılmasına dair mühüm mərhələ tamamlanıb.

Azərbaycan 2026-cı ildə sülh prosesini daha da irəlilətmək məqsədilə ikitərəfli, birbaşa və prinsipial dialoqa sadiq qalacaq. Bu kontekstdə, artıq paraflanmış sülh sazişinin imzalanması və ratifikasiyasını təmin etmək üçün Ermənistanın konstitusiyasında Azərbaycana qarşı hələ də mövcud olan ərazi iddialarının aradan qaldırması və TRIPP layihəsi üzrə maneəsiz əlaqənin təmin edilməsi ilə bağlı öhdəliklərin tam icrası xüsusi əhəmiyyət kəsb edir. 2025-ci ildə Azərbaycan dünyada sülh, təhlükəsizlik və dayanıqlı inkişafın təmin olunmasına öz müsbət töhfəsini verib və bu çərçivədə müvafiq müraciətlərə uyğun olaraq bir sıra ölkələr arasında diplomatik vasitəçilik missiyalarını həyata keçirib. Ötən il ərzində ölkəmiz çoxtərəfli əməkdaşlığın təşviqi, qlobal çağırışlara çevik və effektiv reaksiyaların verilməsi, beynəlxalq yardım fəaliyyətləri, beynəlxalq iqtisadi əməkdaşlıq və iqlim diplomatiyası istiqamətində fəaliyyətini davam etdirib.

Bundan əlavə, 2025-ci ildə Türk Dövlətləri Təşkilatının (TDT) Zirvə görüşü keçirilib və sədrlik Azərbaycana keçib. Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə (AQEM) sədrliyimiz, Qoşulmama Hərəkatı (QH) üzrə Troyka üzvü və milli qisimdə Hərəkat daxilində fəal işlər uğurla davam etdirilib. İqtisadi Əməkdaşlıq Təşkilatı (İqƏT) çərçivəsində Xankəndidə Zirvə görüşü zamanı uğurlu nəticələr əldə olunub. Ölkəmizdə bununla yanaşı, İqƏT Həftəsi keçirilib, Təmiz Enerji Mərkəzi təsis edilərək fəaliyyətə başlayıb. D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Bakıda keçirilən D-8 Həftəsi çərçivəsində komissarların qeyri-rəsmi iclası, iqlim və şəhərsalma üzrə nazirlər dialoqu, D-8 Media Forumu, eləcə də D-8 Gənclər Dialoqu təşkil olunub, təşkilatın strateji sənədlərində əks olunan prioritetlərə uyğun olaraq D-8 Enerji və İqlim Mərkəzi, D-8 Nəqliyyat Mükəmməllik Mərkəzi və D-8 Media Mərkəzinin Azərbaycanda yaradılması barədə razılıq əldə olunub.

Azərbaycanın regional sülh, təhlükəsizlik və rifah üçün əldə etdiyi bu mühüm nəticələr qətiyyətli və uzaqgörən liderlik, diplomatiya və strateji əməkdaşlıq vasitəsilə əldə edilib. Azərbaycan regionun aparıcı dövləti, beynəlxalq münasibətlərdə etibarlı tərəfdaş və sülhün təşəbbüskarı kimi qəbul olunur. Bu, dövlətçiliyimizin möhkəm əsaslarının, iqtisadi gücümüzün və xalqımızın birliyinin təntənəsidir.

**Xarici dövlətlərlə ikitərəfli münasibətlər genişlənib**

2025-ci ildə də Azərbaycanın xarici siyasətində qonşu dövlətlərlə münasibətlərin inkişafına xüsusi önəm verilib, Türkiyə, İran və Gürcüstandan Azərbaycana ali və yüksək səviyyəli səfərlər həyata keçirilib. Türkiyə, İran, Rusiya, Gürcüstan ilə iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası və qurumlararası mexanizmlər çərçivəsində müntəzəm iclaslar təşkil olunub. Müttəfiqlik əlaqələrinə malik olduğumuz Türkiyə ilə intensiv təmaslar davam edib. 2025-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Türkiyəyə 3 işgüzar, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən ölkəmizə 4 işgüzar səfər həyata keçirilib. Ölkə Prezidenti ötən il 5 mart tarixində İğdır-Naxçıvan Qaz Boru Kəmərinin açılış mərasimində, 11-12 aprel tarixində IV Antalya Diplomatiya Forumunda, 19 iyun tarixində isə Kahramanmaraş şəhərində zəlzələdən sonra tikilmiş "Azərbaycan" məhəlləsinin açılış mərasimində iştirak edib.

Azərbaycanla Gürcüstan arasında tarixi, mədəni və iqtisadi bağlara əsaslanan strateji tərəfdaşlıq əlaqələrinin daha da inkişafı istiqamətində səylər davam etdirilib. Gürcüstan Prezidenti və xarici işlər naziri ilk xarici səfərlərini ölkəmizə həyata keçiriblər.

Keçən il ərzində "AZAL"a məxsus təyyarənin vurulmasından sonra Rusiya ilə münasibətlərdə ümumi gərginlik yaşanıb. Buna baxmayaraq, ölkələrimiz arasında dialoq və qarşılıqlı təmaslar davam edib. 9 oktyabr tarixində Düşənbədə MDB Dövlət Başçıları Şurasının iclasında iki ölkə prezidentləri arasında keçirilmiş görüş, Rusiya tərəfindən verilən açıqlamalar, təyyarənin məhz Rusiya silahlı qüvvələrinin səhvi nəticəsində vurulmasının etiraf olunması və üzrxahlıq edilməsi münasibətlərin normallaşması istiqamətində əhəmiyyətli addım olub.

İran ilə münasibətlər də intensiv qarşılıqlı səfərlərlə yadda qalıb. İran İslam Respublikasının Prezidenti keçən ilin aprel və iyul aylarında, İranın xarici işlər naziri isə dekabr ayında ölkəmizdə səfərdə olublar.

Mövcud ikitərəfli və çoxtərəfli regional əməkdaşlıq mexanizmləri çərçivəsində keçirilmiş görüşlər ölkəmizin regional əməkdaşlığa verdiyi mühüm əhəmiyyətin göstəricisidir. Bu çərçivədə, ötən il 28 may tarixində Laçın şəhərində Azərbaycan və Türkiyə prezidentləri və Pakistanın Baş naziri arasında üçtərəfli əməkdaşlıq formatının Zirvə Görüşü, 22 avqust tarixində Avaza şəhərində Azərbaycan, Türkmənistan və Özbəkistan liderləri arasında yüksək səviyyəli görüş, 29 yanvar tarixində isə Azərbaycan-Türkiyə-Özbəkistan xarici işlər, iqtisadiyyat və nəqliyyat nazirlərinin ikinci görüşü baş tutub.

Mərkəzi Asiya ölkələri ilə tarixi dostluq və qardaşlıq münasibətlərinin inkişafı da qarşılıqlı etimad və strateji tərəfdaşlıq əsasında ardıcıl, fəal və uğurla davam etdirilib. Qarşılıqlı səfərlərin intensivliyi münasibətlərin və əməkdaşlığın yüksək səviyyədə olmasını, Azərbaycanın xarici siyasəti çərçivəsində Mərkəzi Asiya regionuna verilən xüsusi önəmi bir daha nümayiş etdirib. İl ərzində Azərbaycan Prezidentinin Mərkəzi Asiya ölkələrinə, habelə həmin ölkələrin prezidentlərinin və digər ali nümayəndələrinin Azərbaycana 14 qarşılıqlı səfəri həyata keçirilib. Ümumilikdə, son üç ildə Azərbaycan Prezidentinin Mərkəzi Asiya ölkələrinə 14 səfəri, Mərkəzi Asiya ölkələri liderlərinin isə Azərbaycana 23 səfəri baş tutub. 15-16 noyabr tarixlərində Özbəkistanda keçirilmiş Mərkəzi Asiya Dövlət Başçılarının VII Məşvərət Görüşündə Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurasına tamhüquqlu üzv kimi qəbul edilməsi, ölkələrimizin vahid geosiyasi və geoiqtisadi məkanda birləşməsi, Mərkəzi Asiyada əməkdaşlığın C5 formatından C6 formatına çevrilməsi, mühüm diplomatik nailiyyət olmaqla, qarşılıqlı etimadın və strateji tərəfdaşlığın yeni mərhələyə daxil olmasına imkan verib. Eləcə də, il ərzində Özbəkistan və Qazaxıstan ilə Ali Dövlətlərarası Şuraların ikinci iclasları, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Türkmənistan ilə aidiyyəti hökumətlərarası komissiyaların iclasları keçirilib.

**Avropa, Asiya və Yaxın Şərqdə tərəfdaşların sayı artır**

Azərbaycan və Avropa ölkələri arasında siyasi dialoq və əməkdaşlıq qarşılıqlı maraqlar əsasında inkişaf etdirilib. Ötən il Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrə, Albaniya, Macarıstan, Danimarka və Slovakiyaya işgüzar səfərləri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Müqəddəs Taxt-Taca rəsmi səfəri baş tutub. Eyni zamanda, Albaniya, İtaliya, Almaniya və Şimali Makedoniya dövlət və hökumət başçıları Azərbaycana səfər edib.

İl ərzində, ölkə rəhbəri Azərbaycanda və xaricdə təşkil olunmuş beynəlxalq tədbir və forumlar çərçivəsində 16 Avropa ölkəsinin dövlət və hökumət başçıları ilə 20-dən çox görüş keçirib. Həmçinin, Birləşmiş Krallıq, Latviya və Macarıstanla strateji dialoq çərçivəsində müvafiq iclaslar keçirilib. 13 oktyabr tarixində Birləşmiş Krallığın Avropa üzrə Naziri Stiven Dauti və Beynəlxalq İnkişaf və Afrika üzrə Dövlət Naziri Baronessa Çapman Parlamentin hər iki palatasında bəyanatlarla çıxış edərək, Birləşmiş Krallığın Azərbaycan ilə ikitərəfli münasibətlərinin Strateji Tərəfdaşlığa yüksəldilməsi barədə qərar qəbul etdiklərini elan ediblər.

Keçən il Asiya və Sakit okean regionu ölkələri ilə də mövcud münasibətlərin genişləndirilməsi istiqamətində fəaliyyət davam etdirilib. İl ərzində Çin Xalq Respublikası və Vyetnam Sosialist Respublikası ilə münasibətlər yeni mərhələyə yüksəlib. Azərbaycan Prezidentinin Çin Xalq Respublikasına bir dövlət və bir işgüzar səfəri həyata keçirilib. Ölkə başçısının 22-24 aprel tarixlərində baş tutan dövlət səfəri çərçivəsində Azərbaycan ilə Çin arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat imzalanıb. 7 may tarixində Azərbaycan Prezidenti və Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi tərəfindən "Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat" qəbul olunub. Bundan başqa, Pakistan İslam Respublikası ilə ənənəvi müsbət dinamika davam etdirilib, Pakistan Baş nazirinin Azərbaycana bir rəsmi və iki işgüzar səfəri baş tutub.

2025-ci il Yaxın Şərq və Afrika ölkələri ilə münasibətlərin inkişafı və əməkdaşlığın gücləndirilməsi üçün mühüm il olub. Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) üç işgüzar və Misirə bir işgüzar səfəri həyata keçirilib. İl ərzində BƏƏ-nin, Somalinin, Qvineya-Bisaunun və Ruandanın ölkə başçılarının və Suriyanın keçid dövrü Prezidentinin Azərbaycana rəsmi səfərləri baş tutub. Rəsmi səfərlər və bir sıra beynəlxalq platformalar çərçivəsində Yaxın Şərq və Afrika regionunun 27 ölkəsinin xarici işlər nazirləri ilə görüşlər keçirilib. Sentyabr ayında Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin ölkəmizə səfəri zamanı "Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə" imzalanıb.

İyulun 12-də Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd əl-Şaraanın Azərbaycana ilk səfəri iki ölkənin münasibətlərində mühüm addım olub. 2 avqust tarixində Azərbaycan, Türkiyə, Suriya və Qətər arasında dördtərəfli razılaşma çərçivəsində, Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya nəqlini təmin edən təbii qaz boru kəmərinin rəsmi açılış mərasimi keçirilib. Bununla, Suriya Azərbaycanın qaz ixrac etdiyi 14-cü ölkə olub. Ümumilikdə, Azərbaycanla Suriya arasında əməkdaşlıq üçün geniş perspektiv mövcuddur.

Ötən il Yaxın Şərqdə və Qəzzada vəziyyətlə əlaqədar ölkəmizin diplomatik təmasları davam edib. İsrail-Fələstin münaqişə zonasında baş verən hadisələr ilə bağlı bir sıra yüksək səviyyəli tədbirlərdə ölkəmiz təmsil olunub, İsrail-Fələstin münaqişəsi ilə bağlı mövqeyimiz diqqətə çatdırılıb. Prezident İlham Əliyevin ABŞ və Misir prezidentləri tərəfindən Qəzza üzrə Şarm əl-Şeyx sammitinə dəvət olunması Azərbaycanın qlobal səviyyədə fəal aktor kimi qəbul olunduğunun, Azərbaycanın sülh təcrübəsinə beynəlxalq etimadın göstəricisidir.

**ABŞ-la əlaqələr yeni mərhələdə**

2025-ci il ərzində Şimali, Mərkəzi və Cənubi Amerika dövlətləri ilə də ikitərəfli əlaqələrin genişləndirilməsi istiqamətində fəaliyyət aparılıb. Xüsusilə, ABŞ-Azərbaycan münasibətlərində müsbət irəliləyişlər əldə olunub. 7-8 avqust tarixlərində Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-a səfəri baş tutub. Səfər çərçivəsində Azərbaycanla ABŞ arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi istiqamətində iki ölkənin liderləri tərəfindən "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" imzalanıb. Anlaşma Memorandumuna əsasən, qarşılıqlı maraq kəsb edən sahələrdə strateji tərəfdaşlığın gücləndirilməsinə xidmət edəcək Strateji Tərəfdaşlıq Xartiyasının 6 ay ərzində hazırlanması məqsədilə iki ölkə arasında Strateji İşçi Qrupu yaradılıb. Strateji İşçi Qrupu çərçivəsində enerji, ticarət və tranzit daxil olmaqla regional bağlantılar; süni intellekt və rəqəmsal infrastruktur daxil olmaqla iqtisadi sərmayə; eləcə də müdafiə, təhlükəsizlik və terrorla mübarizə kimi sahələrin prioritetləşdirilməsi planlaşdırılır. Bu məqsədlə müxtəlif istiqamətlər üzrə ikitərəfli təmaslar və görüşlər keçirilib, qarşılıqlı səfərlər baş tutub, habelə İşçi Qrupunun tam tərkibdə ilk iclası 19 dekabr tarixində təşkil olunub.

Səfər, həmçinin iki ölkə prezidenti arasında keçirilən görüş çərçivəsində ABŞ Prezidenti tərəfindən Azadlığa Dəstək Aktına 907-ci düzəlişin tətbiqinin dayandırılması barədə sərəncamın imzalanması ilə əlamətdar olub. Azərbaycan-ABŞ münasibətlərində keçmişin mənfi mirası olan 907-ci düzəlişin tətbiqinin ABŞ Prezidenti tərəfindən Prezident İlham Əliyevlə görüş çərçivəsində dayandırılması rəmzi məna daşıyır.

**İl ərzində 41 ölkə ilə 191 sənəd imzalanıb**

Bütövlükdə, ötən il ərzində Azərbaycan tərəfindən ikitərəfli və çoxtərəfli əsasda 41 ölkə ilə 191 sənəd imzalanıb. Eləcə də, 52 ölkənin Xarici İşlər nazirlikləri ilə siyasi məsləhətləşmələr keçirilib, 3 ölkə ilə Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr mexanizminin yaradılmasına dair Protokol və Anlaşma Memorandumu imzalanıb. Azərbaycanın xarici ölkələrdə diplomatik təmsilçiliyinin genişləndirilməsi istiqamətində tədbirlər çərçivəsində, 2025-ci ildə ölkəmizin Tailand Krallığında və Oman Sultanlığındakı səfirliklərinin rəsmi açılışı baş tutub, 13 illik fasilədən sonra keçən ilin fevral ayında Azərbaycan Suriyadakı səfirliyinin fəaliyyətini bərpa edib. Bundan başqa, ölkəmizin Bəhreyn Krallığında Səfirliyinin təsis edilməsi ilə bağlı qanun qəbul olunub. Beləliklə, Azərbaycanın xaricdə diplomatik missiyalarının ümumi sayı 93-ə çatıb (70 səfirlik, 6 daimi nümayəndəlik, 9 baş konsulluq, 7 səfirlik ofisi və 1 təmsilçilik ofisi).

Bütün bunlarla yanaşı, Azərbaycan beynəlxalq təşkilatlar çərçivəsində də fəal siyasət həyata keçirib. Bunların sırasında BMT, TDT, AQEM, İƏT, İqƏT, Qoşulmama Hərəkatı, ŞƏT, MDB, Aİ və s. qeyd etmək olar.

# Çini Avropa ilə birləşdirən polad magistral

## Azərbaycan vasitəsilə Orta Dəhlizdə daşınan yüklərin sayı artır

"Çin Enerji İnşaat Korporasiyası"na ("China Energy Engineering Group") məxsus fotovoltaik modullarla yüklənmiş 45 konteynerlik Çin-Avropa yük qatarı Sian şəhərindən yola düşüb. Bu, 2026-cı ildə Çindən Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) ilə yola düşən ilk qatardır. Yanvarın 1-də yola çıxan qatar Horqos sərhəd-buraxılış məntəqəsindən Qazaxıstana keçərək Xəzər dənizi vasitəsilə yekunda Bakıya çatacaq. Modulların Bakıya operativ çatdırılması Sian şəhərinin Orta Dəhliz quruculuğunda fəal iştirakı, habelə dəhlizin üzv tərəfdaşları ilə birgə xərclərin azaldılması və səmərəliliyin artırılması istiqamətində görülən ardıcıl tədbirlər sayəsində mümkünləşən nəqliyyat siyasətinin uğuru hesab edilə bilər. Hazırda Orta Dəhliz üzrə qatarların hərəkəti daha da intensivləşdiyindən daşınma müddəti daha da qısalaraq 15-23 gündən təxminən 11 günə düşüb.

### 2024-cü ildə yola düşən qatar

Qeyd edək ki, Çin-Avropa yük qatarının (Sian) Trans-Xəzər xətti 2019-cu ilin oktyabrında ilk dəfə istifadəyə verilib. Azərbaycan-Çin ticarət əlaqələri tarixində isə ilk dəfə olaraq bu dəhlizlə ixrac yüklərinin daşınmasına 2024-cü ildə Bakıdan dəmir yolu nəqliyyatı ilə Çinə yola salınmaqla başlanılıb. Həmin ilin noyabrında Orta Dəhliz beynəlxalq nəqliyyat marşrutu ilə Azərbaycandan Çinə yola düşən 62 ədəd 40 futluq konteynerdən ibarət "Bakı-Sian" blok qatarı Qazaxıstan üzərindən Çinin ən böyük quru limanlarından biri olan Sian Limanına çatıb. Ölkəmizə məxsus ixrac mallarının Orta Dəhliz vasitəsilə Çinə start götürməsi ilə uzaq Şərqə tranzitin başlanğıcı olmaqla, mühüm iqtisadi-geocoğrafi hadisə kimi yadda qalıb.

Beləliklə, Azərbaycanın qətiyyətlə və böyük iradə sayəsində "Bir kəmər, bir yol" layihəsinin ən strateji halqası olan Orta Dəhliz nəqliyyat dəhlizinin polad magistralı ikitərəfli işə düşüb. Çinə ilk ixrac qatarının hərəkətə başlaması ilə Azərbaycanın ixrac potensialı bu regiona daha da artıb və ölkəmizin nəqliyyat infrastrukturu Orta Dəhlizə tam inteqrasiya olunub. Belə ki, Azərbaycan Dəmir Yolu, Abşeron Logistika Mərkəzi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" də bu logistika zəncirinə qoşulub.

Azərbaycandan Çinə ixrac yüklərinin Orta Dəhlizlə daşınması digər region ölkələrinin də bu nəqliyyat ailəsinə qoşulması sayəsində Şərq-Qərb dəhlizinin rentabelliyini və yük daşınmalarının həcmini artırıb. 2025-ci ilin yanvar-noyabr aylarında isə bu marşrut üzrə ümumilikdə 466 qatar reysi həyata keçirilib.

### Orta Dəhliz ortaq iqtisadi həmrəylik körpüsüdür

Orta Dəhliz hazırda Çin və Cənub-Şərqi Asiyanı Avropa ilə Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə birləşdirən nəhəng quru-dəniz nəqliyyat-logistika habı kimi qlobal nəqliyyat ailəsinin xüsusi diqqətini cəlb etməkdədir. 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılan dəhlizə digər ölkələr də qoşulub. Hazırda marşrut Çin-Qazaxıstan sərhədindən başlayır və Avropaya qədər uzanır.

Rusiya-Ukrayna müharibəsinin başlaması nəticəsində yaranan qeyri-sabitlik Rusiya ərazisi ilə əlaqəli ənənəvi nəqliyyat marşrutlarını pozdu. Avropanın Rusiyaya qarşı sanksiyaları tranzit marşrutlarını daha da məhdudlaşdırdı. Şimal Dəhlizi boyunca yaranmış fasilələr və problemlər səbəbindən Avrasiya ölkələri və biznes subyektləri alternativ ticarət marşrutları axtarışına çıxarkən Azərbaycandan keçən Orta Dəhliz həyati əhəmiyyət daşıyan bir arteriyaya çevrildi. Son illərdə Orta Dəhliz Çin Xalq Respublikası ilə Avropa arasında əlverişli ticarət marşrutu kimi önəm qazanıb. Qeyd etmək lazımdır ki, Şimal Dəhlizinə əsas alternativ olan Orta Dəhlizlə Çindən Avropaya 12 gün ərzində 10 min kilometr deyil, 7 min kilometr məsafə qət etməklə daşınmalar mümkündür.

Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşımaların həcmi əvvəlki illə müqayisədə 2024-cü ildə 62 faiz artaraq 4,5 milyon tona çatıb. Tranzit axını xüsusilə nəzərəçarpacaq artım nümayiş etdirib: ümumi tranzit həcmi 4 dəfə, Çindən tranzit isə 25 dəfədən çox artıb. Bundan əlavə, 2025-ci ilin ilk 10 ayında marşrut vasitəsilə Çindən 292 konteyner qatarı yola salınıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 12 faiz artım deməkdir.

Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, həmçinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının proqnozlarına əsasən, 2030-cu ilə qədər Orta Dəhliz üzrə daşımaların həcmi 11 milyon tona, 2040-cı ilə qədər isə konteyner tutumu 865 min TEU-ya yüksələcək. Bu, Azərbaycan üçün yalnız müvəqqəti alternativ və ya ehtiyat planı deyil, həm də qlobal ticarət üçün uzunmüddətli, davamlı bir yoldur.






### Avropa İttifaqı da Orta Dəhlizə qoşulur

Avropa ölkələri də Orta Dəhliz ailəsinə qoşulmaq üçün öz nəqliyyat infrastrukturlarını inteqrasiya etmək yönündə addımlar atmağa başlayıb.

Bolqarıstanın Qara dənizdəki Varna və Burqas limanlarının Orta Dəhlizdə birləşdirilməsi nəzərdə tutulur. Bununla bağlı Bolqarıstan Prezidenti Rumen Radev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Astanada keçirilən Qazaxıstan-Bolqarıstan Hökumətlərarası Komissiyasının iclası çərçivəsində razılaşma əldə edilib. Tərəflər Burqas və Varna dəniz limanlarının Qazaxıstanın strateji nəqliyyat-ticarət marşrutlarına inteqrasiyası üçün birləşdirici dəhliz layihəsi üzərində işləməyə razı olduqlarını bəyan ediblər.

Həmçinin, Sloveniya da nəqliyyat şəbəkəsini Orta Dəhlizə birləşdirmək yönündə praktiki addımlar atmaqdadır. Cari ilin aprelində Sloveniya hökuməti Şərqlə ticarət əlaqələrini genişləndirmək niyyətini bəyan edib. Qazaxıstan və Sloveniyanın dövlət başçıları - Kasım-Jomart Tokayev və Nataşa Pirç Musarın görüşü zamanı nəqliyyat və logistika sektorunda kommunikasiyaların əhatə dairəsinin genişləndirilməsi zamanı rəsmi Lyublyana Orta Dəhlizə qoşulmaq niyyətini ifadə edib. Sloveniya hökuməti Adriatik dənizindəki Koper dəniz limanının digər nəqliyyat xətlərinə inteqrasiya olunması sayəsində Orta Dəhlizə çıxış əldə etmək istəyir.

Ümumilikdə, Orta Dəhlizdə daşınmaların həcminin və dəhlizin geoiqtisadi əhəmiyyətinin artması Avropa İttifaqının da marağını bu bölgəyə daha çox fokuslayıb, Avropanın əksər ölkələri Mərkəzi Asiya-Xəzər -Avropa coğrafiyasına xüsusi önəm verərək bu bölgənin nəqliyyat infrastrukturlarının yenilənməsinə dəstək niyyətlərini bəyan edirlər. Avropa Komissiyasının beynəlxalq əməkdaşlıq üzrə baş direktoru Henrik Hololei Mərkəzi Asiya ölkələrinin Orta Dəhlizin formalaşması istiqamətində səylərini müsbət dəyərləndirib, onların bu iradəsi sayəsində vahid Asiya-Avropa nəqliyyat blokunun tam rentabelli işinin təmin ediləcəyini vurğulayıb. Bu prosesdə Aİ-nin bütün zəruri dəstəyi verəcəyi xatırlanıb.

### Növbəti dayanacaq Zəngəzurdur

Perspektiv isə daha ümidverici potensiallardan xəbər verir. Azərbaycanın yaratdığı yeni reallıqlar fonunda bölgənin coğrafiyası və logistika xəritəsi dəyişməkdədir, Zəngəzur dəhlizinin Orta Dəhliz zəncirinə qoşulması üçün səylər gücləndirilib. Zəngəzur dəhlizi Çin və Mərkəzi Asiya ölkələri ilə Avropa ölkələri arasında nəqliyyat əlaqələrinin şaxələndirilməsini təmin edəcək ən qısa dəhliz hesab olunur. Hazırda bölgədə qurulan dəmir yolu şəbəkələri demək olar ki, yekunlaşmaqdadır. Yaxın vaxtlarda bu işlər tam başa çatdıqdan və nəqliyyat qovşaqları vahid bloka inteqrasiya olunduqdan sonra Zəngəzurdakı resursların da dünya bazarına sözügedən dəhlizlə çıxarılması mümkün olacaq.

Azad ərazilərdə çalışan biznes strukturlarının istehsal etdiyi ixrac mallarının birbaşa qatarlarla Çinə daşınması bölgənin əhəmiyyətini də artıracaq. Həmin bölgədə güclü sənaye və aqrar potensiallar var və hazırda bir neçə sənaye müəssisəsi faktiki olaraq fəaliyyətini ölkə iqtisadiyyatına reinteqrasiya edib. Ağdam Sənaye Parkındakı 5 sənaye müəssisəsi bir neçə ay əvvəl istehsala başlayıb. Cəbrayıldakı "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında da yaxın günlərdə sənaye istehsalı öz töhfələrini verəcək. Eləcə də bögədə, kənd təsərrüfatı klasterləri qurulmaqdadır.

Bütün bunlar Qarabağ və Şərqi-Zəngəzurun iqtisadi imkanlarını səfərbər edərək malların Orta Dəhlizlə birbaşa uzaq Şərqə və Çinə ixracını təmin edəcək, həmçinin Azərbaycanın iqtisadi gücünü daha da artıracaq.

***ELBRUS CƏFƏRLİ***

# Vətəndən kənarda vətən olmaq...

## Diaspor quruculuğunun missiyası

***Yeganə***

Müasir dövrdə diaspor quruculuğu hər bir dövlətin milli maraqlarının qorunması və beynəlxalq aləmdə mövqelərinin möhkəmləndirilməsi baxımından mühüm strateji istiqamətlərdən birinə çevrilib. Xüsusilə xarici ölkələrdə yaşayan soydaşlarımızın təşkilatlanması, onların vahid məqsəd ətrafında birləşməsi və fəal ictimai mövqe tutması dövlət-diaspor münasibətlərinin əsasını təşkil edir. Bu prosesdə xarici ölkələrdə keçirilən görüşlər xüsusi rol oynayır.

Diaspor quruculuğu təkcə milli kimliyin qorunması deyil, eyni zamanda Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması missiyasını da daşıyır. Xarici ölkələrdə təşkil olunan görüşlər, konfranslar və dəyirmi masalar bu baxımdan mühüm platforma rolunu oynayır. Belə görüşlər zamanı diaspor nümayəndələri bir-biri ilə əlaqələrini gücləndirir, qarşılıqlı təcrübə mübadiləsi aparır və gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirirlər.

Eyni zamanda diaspor quruculuğu müasir dövrdə xalqların milli kimliyinin qorunması, beynəlxalq əlaqələrin möhkəmləndirilməsi və dövlət maraqlarının müdafiəsi baxımından mühüm əhəmiyyət daşıyır.

Qloballaşma şəraitində müxtəlif ölkələrdə yaşayan soydaşların təşkilatlanması və vahid məqsədlər ətrafında birləşməsi diaspor fəaliyyətinin əsasını təşkil edir.

Xaricdə yaşayan azərbaycanlılarla keçirilən görüşlər onların problemlərinin dinlənilməsi, təklif və təşəbbüslərinin dəyərləndirilməsi baxımından da vacibdir. Bu cür görüşlər diaspor üzvlərində dövlətin diqqət və qayğısını hiss etdirməklə yanaşı, onlarda məsuliyyət və birlik ruhunu daha da gücləndirir. Nəticədə diaspor təşkilatları daha məqsədyönlü və koordinasiyalı fəaliyyət göstərməyə başlayır.

Eyni zamanda, bu görüşlər Azərbaycan mədəniyyətinin, tarixinin və milli dəyərlərinin tanıdılması üçün geniş imkanlar yaradır. Xarici ölkələrdə keçirilən rəsmi və qeyri-rəsmi tədbirlər vasitəsilə milli mədəniyyət nümunələri nümayiş etdirilir, tarixi həqiqətlər beynəlxalq ictimaiyyətə çatdırılır. Bu isə informasiya müharibəsinin getdikcə gücləndiyi bir dövrdə olduqca əhəmiyyətlidir.



**Macarıstanda mühüm görüş...**

Macarıstanın paytaxtı Budapeştdə "Diaspor gəncləri: strateji hədəflərə doğru" mövzusunda Azərbaycan Diaspor Gənclərinin İşçi Qrupunun görüşü keçirilib. Azərbaycan Evində keçirilən görüşə Diaspor Gənclərinin Yay Düşərgələrində iştirak edən azərbaycanlı gənclər qatılıb.

Əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib, torpaqlarımızın bütövlüyü uğrunda şəhid olan qəhrəmanlarımızın əziz xatirəsi ehtiramla yad edilib.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov çıxışında Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan və müasir yanaşmalar əsasında inkişaf edən diaspor siyasətində gənclərin xüsusi yeri barədə danışıb. Bildirib ki, müasir dünyada diaspor artıq sadəcə mədəni icma deyil, informasiya müharibəsinin güclü aktorudur. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı gənclərin də bu sahədə uğurları var və onlar ortaq müzakirə platformalarının yaradılması, milli-mədəni kimliyin qorunması istiqamətində faydalı işlər görürlər.

Fuad Muradov Diaspor Gənclərinin Yay Düşərgələrinə diqqət çəkib. O, düşərgələrin gənclərdə vətənə bağlılıq hissini inkişaf etdirdiyini söyləyib.

Azərbaycanın Macarıstandakı səfiri Tahir Tağızadə diaspor gənclərinin fəaliyyətini və keçirilən tədbiri müsbət qiymətləndirib.

Görüşdə Diaspor Gənclərinin Yay Düşərgələrinin tarixindən və gənclərin düşərgələrə marağından bəhs edən videoçarx göstərilib.

Macarıstandakı Azərbaycan Evinin və Azərbaycan Diasporuna Dəstək Fondunun birgə təşkilatçılığı ilə "Diaspor gəncləri: strateji hədəflərə doğru" mövzusunda keçirilən toplantı "Konstitusiya və Suverenlik İli"nə və Qarabağda şanlı Zəfərimizin beşilliyinə həsr olunub.

Göründüyü kimi, diaspor quruculuğunda gənclərin rolunu da xüsusi qeyd etmək lazımdır. Xarici ölkələrdə gənclərlə keçirilən görüşlər onların milli kimliyə bağlılığını artırır, vətənpərvərlik ruhunu möhkəmləndirir. Gənclər müasir texnologiyalardan və sosial mediadan istifadə etməklə diaspor fəaliyyətinə yeni dinamika gətirir, Azərbaycanın səsinin daha geniş auditoriyalara çatdırılmasına töhfə verirlər.

Nəticə etibarilə, diaspor quruculuğu uzunmüddətli və davamlı prosesdir. Xarici ölkələrdə keçirilən görüşlər bu prosesin əsas dayaqlarından biri kimi çıxış edir. Bu görüşlər vasitəsilə milli birlik möhkəmlənir, dövlət-diaspor əlaqələri güclənir və Azərbaycanın beynəlxalq aləmdə mövqeləri daha da möhkəmləndirilir. Güclü diaspor isə güclü dövlətin ayrılmaz tərkib hissəsidir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi" istiqaməti üzrə hazırlanmışdır**

# "Tam Qətiyyət Əməliyyatı"...

Hazırda beynəlxalq gündəmin əsas mövzularından biri Venesuelada baş verən hadisələrdir. Yanvarın 3-də ABŞ Karakasdakı hərbi hədəflərə zərbələr endirib və həmin gün Venesuelada fövqəladə vəziyyət elan edilib. Bir müddət sonra ABŞ Prezidenti Donald Tramp Venesuelaya endirilən zərbələri, ölkə prezidenti

## ABŞ Venesuelada vəziyyətə nəzarət edir

Nikolas Maduronun və həyat yoldaşı Siliya Floresin əsir götürüldüyünü təsdiqləyib. CNN telekanalının məlumatına görə, hazırda onlar Nyu-Yorkun cənubundakı Bruklin həbsxanasında saxlanılır. Nyu-Yorkdakı venesuelalı immiqrantlar Nikolas Maduro və həyat yoldaşının ələ keçirilməsini bayram edirlər.

### Xəbərdarlıqdan nəticəyə doğru

Xatırladaq ki, ABŞ Prezidenti narkotik ticarətinə son qoyulması üçün Maduroya dəfələrlə xəbərdarlıq etmişdi. Çünki bu problem Birləşmiş Ştatların milli təhlükəsizliyi üçün təhdid hesab olunurdu. Xəbərdarlıq nəticə verməyən kimi Vaşinqton belə bir əməliyyat keçirib.

Donald Tramp keçirdiyi mətbuat konfransında təhlükəsiz, düzgün və sağlam düşüncəli dəyişiklik baş verənə qədər Venesuelanı idarə edəcəklərini bəyan edib. O bildirib ki, ABŞ-ın məqsədi məhz sağlam düşüncəli idarəçiliyin olmasıdır: "Biz böyük Venesuela xalqı üçün, o cümlədən hazırda ABŞ-da yaşayan və ölkələrinə qayıtmaq istəyən bir çox venesuelalı üçün sülh, azadlıq və ədalət istəyirik. Venesuela xalqının rifahını düşünməyən başqa birisinin Venesuelanı ələ keçirməsi riskini gözə ala bilmərik. Biz buna imkan verməyəcəyik. Biz indi oradayıq və düzgün keçid mümkün olana qədər qalacağıq". Tramp əlavə edib ki, Venesuela prezidenti Nikolas Maduro ələ keçirilərkən bir neçə amerikalı xəsarət alıb. O, əməliyyat zamanı heç bir amerikalının ölmədiyini bildirib: "Bir neçə nəfər vurulub. Amma onlar geri qayıtdılar və kifayət qədər yaxşı vəziyyətdədirlər. Əməliyyat zamanı 1 helikopter vurulub, lakin heç bir təyyarə itkisi olmayıb".




### BMT Baş katibi narahatdır

ABŞ dövlət katibi Marko Rubio isə "NBC News"a müsahibəsində deyib ki, ABŞ Venesuela ilə deyil, narkotik kartelləri ilə müharibə aparır. O bildirib ki, ölkəsi neft sanksiyaları ilə bağlı Amerika qanunlarını tətbiq edir, məhkəməyə müraciət edir, order alır və neft daşıyan gəmiləri ələ keçirir. Dövlət katibi, Venesuela heç bir Amerika qoşununun olmadığını və Venesuelada qalan liderləri düzgün qərar verərsə, ABŞ-ın onlarla işləməyə hazır olduğunu əlavə edib.

Yeri gəlmişkən, beynəlxalq ictimaiyyət də Venesuelada baş verənlərə reaksiya verib. BMT Baş katibi Antonio Quterreş Venesueladakı gərginlikdən və ABŞ-ın ölkədəki hərbi əməliyyatlarından dərin narahatlıq keçirib. Bu barədə Baş katibin sözçüsünün bəyanatında deyilir. Quterreş bu halın region üçün potensial narahatedici nəticələrə səbəb ola biləcəyini bildirib. "Venesueladakı vəziyyətdən asılı olmayaraq, bu hadisələr təhlükəli bir presedent təşkil edir. Baş katib BMT Nizamnaməsi də daxil olmaqla, beynəlxalq hüquqa hamı tərəfindən tam hörmət edilməsinin vacibliyini vurğulamağa davam edir. O, beynəlxalq hüququn qaydalarına hörmət edilməməsindən dərin narahatdır", - deyə bəyanatda qeyd olunub. Baş katib bütün tərəfləri insan hüquqlarına və qanunun aliliyinə tam hörmətlə yanaşılan inklüziv dialoqa çağırıb.

### Aİ-dən çağırış

Avropa İttifaqı (Aİ) isə Venesuelada vəziyyətin sülh yolu ilə, demokratik və inklüziv həllini dəstəkləməyə davam edəcək. Aİ Şurasının rəhbəri Antoniu Koşta "X" sosial şəbəkəsində yazıb ki, "Venesueladakı vəziyyəti böyük narahatlıqla izləyirəm. Avropa İttifaqı münaqişənin deeskalasiyasına və vəziyyətin beynəlxalq hüquqa və BMT Nizamnaməsində təsbit edilmiş prinsiplərə tam riayət olunmaqla həllinə çağırır". A.Koşta, həmçinin qeyd edib ki, Venesueladakı Aİ vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün Avropa diplomatiyasının rəhbəri Kaya Kallasın üzv dövlətlərlə koordinasiyalı şəkildə həyata keçirdiyi səyləri dəstəkləyir.

Kaya Kallas isə ABŞ-ı Venesuelada həyata keçirdiyi əməliyyat fonunda təmkinli olmağa çağırıb. O, ABŞ dövlət katibi Marko Rubio, eləcə də Aİ-nin Karakasdakı səfiri ilə danışıqlar aparıb: "Aİ dəfələrlə cənab Nikolas Maduronun legitimliyinin olmadığını bildirib və hakimiyyətin sülh yolu ilə ötürülməsini dəstəkləyib. İstənilən halda beynəlxalq hüquq və BMT Nizamnaməsinin prinsiplərinə əməl edilmədir. Biz təmkinli olmağa çağırırıq". K.Kallas Aİ vətəndaşlarının təhlükəsizliyinə xüsusi diqqət çəkərək, onların müdafiəsinin Avropa İttifaqı üçün əsas məsələ olduğunu vurğulayıb.

Böyük Britaniyada isə müxalifət partiyaları Baş nazir Kir Starmeri ABŞ-ın Venesuelada hərbi əməliyyatlarını pisləməyə çağırıblar. BBC kanalındakı "Sunday with Laura Kuenssberg" verilişində Starmerdən ABŞ-ın suveren dövlətə hücumunu pisləməyi istəyib-istəmədiyi soruşulub. "Mən bütövlükdə bütün əhəmiyyətli faktları toplamaq istəyirəm və hazırda sadəcə tam mənzərəyə sahib deyilik - vəziyyət sürətlə dəyişir", - deyə o, Böyük Britaniyanın ABŞ-ın hərbi əməliyyatında iştirak etmədiyini təsdiqləyib.

Baş nazir əlavə şərhlər verməzdən əvvəl Donald Tramp və Böyük Britaniyanın digər müttəfiqləri ilə danışmalı olduğunu bildirib. O, "ömür boyu beynəlxalq hüququn müdafiəçisi olduğunu", lakin "bütün faktlara sahib olduğundan əmin olmaq istədiyinə" görə ABŞ-ın hücumunu pisləməkdən imtina etdiyini vurğulayıb.

Fransa Prezidenti Emmanuel Makron isə verdiyi açıqlamada Venesuela xalqının "Nikolas Maduronun diktaturasından azad olunmasını" alqışlayıb. ABŞ-ın "X" sosial platformasında paylaşdığı mesajda Makron bildirib ki, hakimiyyəti mənimsəməklə və əsas azadlıqları tapdalamaqla Nikolas Maduro öz xalqının ləyaqətinə ciddi zərbə vurub. Fransanın dövlət başçısı Venesuelada "dinc, demokratik və xalqın iradəsinə hörmət edən" siyasi keçidə çağırıb. O, 2024-cü ildə prezident seçilmiş Edmundo Qonsales Urrutianın bu mühüm mərhələni tezliklə həyata keçirə biləcəyinə ümid etdiyini vurğulayıb.

Bu bəyanat Fransa siyasi səhnəsində ABŞ-ın Venesuelaya endirdiyi zərbələri pisləyən fikirlərin artdığı bir vaxta təsadüf edir. Marin Lö Pen Venesuelanın suverenliyinin pozulmasını qınayaraq, xarici hərbi müdaxilələrin qəbuledilməz olduğunu bildirib. Jan-Lük Melenşon da ABŞ-ın hərbi əməliyyatlarına qarşı çıxıb. Sol partiyaların, o cümlədən "Əyilməz Fransa" (La France insoumise-LFİ) və Kommunist Partiyasının çağırışı ilə Parisdə Respublika meydanında etiraz tədbiri keçirilib. Emmanuel Makron regional tərəfdaşlarla məsləhətləşmələrin davam etdiyini və Fransanın Venesueladakı vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün vəziyyəti yaxından izlədiyini bildirib.

Bütün bunların fonunda ABŞ-la balanslı və qarşılıqlı hörmət əsasında münasibətlərə nail olmağı prioritet adlandıran Venesuela prezidentinin səlahiyyətlərini icra edən Delsi Rodriges Vaşinqtona birgə gündəm üzərində işləməyi təklif edib. Delsi Rodriges bu barədə özünün sosial media hesabında yazıb. Onun sözlərinə görə, Karakas ABŞ və region ölkələri ilə suveren bərabərliyə, balanslı və qarşılıqlı hörmətə əsaslanan beynəlxalq münasibətlərin inkişafında maraqlıdır.

### Maduro necə ələ keçirilib?

Yeri gəlmişkən, ABŞ-ın Venesuela prezidenti Nikolas Maduronu ələ keçirmək üçün gecə ərzində aparılan missiyası "Tam Qətiyyət Əməliyyatı" adlandırılıb. Bu barədə ABŞ Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, general Den Keyn bəyan edib. "Tam Qətiyyət Əməliyyatı" kimi tanınan əməliyyat yanvarın 2-də gecə yarısı gizli, dəqiq və aylarla davam edən planlaşdırma və məşq nəticəsində, yalnız ABŞ ordusunun həyata keçirə biləcəyi bir əməliyyatın kulminasiya nöqtəsi idi", - deyən general əməliyyatın bəzi detallarını da açıqlayıb və qeyd edib ki, Maduronun necə hərəkət etdiyi, harada yaşadığı, haraya səyahət etdiyi, nə yediyi, nə geyindiyi aylarla izlənilib. "Qərb yarımkürəsində quru və dənizdəki 20 fərqli bazadan 150-dən çox təyyarə havaya qalxdı. Ərazidə həyata keçirilən bir sıra zərbələrlə qorunan vertolyotlar gecə saat 1:00 radələrində Maduronun qərargahına çatdı. Maduro və həyat yoldaşını ələ keçirmək üçün mühafizə qüvvələri atəşə tutulduqdan sonra çoxsaylı özünümüdafiə əməliyyatları keçirilib və sonra - saat 3:29 radələrində Venesueladan geri uçublar", - deyə Den Keyn vurğulayıb.

Rəsmilərin sözlərinə əsasən, Nikolas Maduronun işi ilə bağlı Manhetten Federal Məhkəməsində ilk dinləmənin keçirilməsi nəzərdə tutulur. ABŞ Ədliyyə Nazirliyinin bu yaxınlarda açıqladığı ittihamnaməsində Nikolas Maduro genişmiqyaslı narkotik qaçaqmalçılığı əməliyyatı ilə dəstəklənən "korrupsiyalaşmış, qanunsuz hökumətin" idarə edilməsində ittiham olunur, bunun nəticəsində ABŞ-a minlərlə ton kokain gətirilib.

### Delsi Rodriges Vaşinqtona birgə gündəm üzərində işləməyi təklif edib

Prezident səlahiyyətlərinin icraçısı, həmçinin ABŞ-la ortaq inkişafa yönələn əməkdaşlıq gündəliyi üzərində birgə işləməyi təklif edib. Onun sözlərinə görə, Venesuela "sülhə və dinc birgəyaşayışa" sadiqdir və "xarici təhdidlər olmadan" fəaliyyət göstərmək istəyir.

Donald Tramp isə bəyan edib ki, ABŞ Venesuelada vəziyyətə nəzarət edir. Tramp hazırda orada hakimiyyətdə olan insanlarla təmasda olduqlarını bildirib. ABŞ lideri hələ də prezident səlahiyyətlərini idarə edən Delsi Rodriges ilə şəxsən danışmadığını, lakin başqalarının onunla artıq əlaqə yaratdığını vurğulayıb. O, Rodrigesin ABŞ-la əməkdaşlıq etdiyini qeyd edib: "Venesuela hazırda ölü bir ölkədir. Biz onu geri qaytarmalıyıq və infrastrukturu işlək vəziyyətə gətirmək üçün neft şirkətlərinin böyük investisiyalarına ehtiyacımız olacaq".

Bu arada ABŞ administrasiyası neft şirkətlərini xəbərdar edib ki, onlar yalnız bu ölkənin neft sənayesinə əhəmiyyətli investisiyalar qoyduqları təqdirdə Venesuela sayəsində kompensasiya alacaqlar. Bu barədə "Politico" məlumat yayıb. Qəzet qeyd edir ki, Amerika neft şirkətləri uzun müddətdir Venesueladakı aktivlərini geri almaq istəyirlər və indi ABŞ Prezidenti Donald Tramp administrasiyası bir şərtlə onlara buna nail olmaqda kömək təklif edir. Son həftələrdə administrasiya rəsmiləri neft şirkətlərinin rəhbərlərinə bildiriblər ki, əgər Venesuela hakimiyyəti tərəfindən ələ keçirilən qazma qurğuları, boru kəmərləri və digər əmlakları üçün kompensasiya almaq istəyirlərsə, Bolivar Respublikasına qayıtmağa və ölkənin neft sənayesinin bərpasına əhəmiyyətli investisiyalar qoymağa hazır olmalıdırlar.

"Politico" vurğulayır ki, şirkətin nümayəndələri Venesuelada neft yataqlarının bərpasının aparılmasında çətinliklərdən ehtiyat edirlər, üstəlik, ölkəyə yaxın gələcəkdə kimin rəhbərlik edəcəyi bəlli deyil. Nəşrin qeyd etdiyi kimi, onları, ilk növbədə, administrasiya əməkdaşlarının avadanlıqların təhlükəsizliyinə zəmanət verə bilib-bilməyəcəyi, ödənişlərin necə həyata keçiriləcəyi, eləcə də qiymətlərin kifayət qədər artıb-artmayacağı narahat edir.

**Nardar BAYRAMLI**

# İranda etirazlar səngimir...

**İranda etiraz aksiyaları və iğtişaşlar davam edir. Buna səbəb dolların bahalaşması fonunda milli valyutanın ucuzlaşmasıdır. Bu da əhalinin sosial durumuna ciddi təsir edir.**

### 12 günlük müharibənin ağır nəticələri...

Qeyd edək ki, İranda İsraillə 12 günlük savaşdan sonra iqtisadi vəziyyət gərginləşib. Digər səbəb müharibəyə görə nüvə proqramı ilə bağlı İran-ABŞ danışıqlarının dayandırılmasıdır. Belə ki, bundan sonra Tehran Qərbin sanksiyaları ilə daha çox üzləşir. Bütün bunların fonunda dekabrın 28-i İranda, xüsusən də paytaxt Tehranda sahibkarların etiraz aksiyası başlayıb və güclənən nümayişlər bir neçə gündür davam edir. Təhlükəsizlik qüvvələri ilə etirazçılar arasında toqquşmalarda ölən və yaralananlar var. Etirazçılar ali dini lider Xameneinin portretlərini də yandırmaqdan çəkinməyiblər.

Yeri gəlmişkən, İsrail ilə 12 günlük müharibə zamanı həlak olanların ailələri ilə görüşdə Xamenei bildirib ki, milli valyutanın dəyərinin düşməsinə görə etirazlar əsaslıdır: "Sahibkarlar belə şəraitdə işləyə bilməyəcəklərini deyəndə haqlıdırlar. Dövlət rəsmiləri bunu qəbul edirlər və mən bilirəm ki, hörmətli Prezident və digər yüksək vəzifəli şəxslər bu problemin həlli üzərində işləyirlər". Onun sözlərinə görə, bəzi qüvvələr yalan iddialar irəli sürərək ölkəyə, rəsmilərə, hökumətə və ya millətə nəyisə qəbul etdirmək istəyirlər: "Hər bir insan buna qarşı qətiyyətlə dayanmalıdır, biz düşmənə boyun əyməyəcəyik".

İran Mərkəzi Bankının sədri Məhəmməd Fərzin milli valyutanın ciddi zəifləməsi fonunda istefa verib. Vəziyyət isə mürəkkəb olaraq qalır. Xatırladaq ki, prezident Məsud Pezeşkian etiraz yürüşləri başladıqdan dərhal sonra hüquq-mühafizə orqanlarını təmkinli davranmağa, hökumət üzvlərini isə narazı kütlə ilə dialoqa girməyə çağırmışdı. Hökumətin effektiv xidmətlər göstərməli, resursları düzgün idarə etməli və ictimai narazılığı aradan qaldırmaq üçün iqtisadi və sosial problemlərə praktik həllər tapmalı olduğunu vurğulayan Pezeşkian sözlərinə belə davam edib: "İnsanlar narazıdırsa, bu bizim günahımızdır. Məsuliyyət bizimdir".



### "Xalqa xidmət edə bilmirəmsə, vəzifədə olmamalıyam"

"Xalqa xidmət etməyə gəlmişəm və əgər məsuliyyət mənim üzərimdədirsə, problemi həll etməliyəm"-deyən prezident əlavə edib ki, bütün vətəndaşların problemləri həll olunmalıdır: "Allah imkan verməz ki, kimsə cəmiyyətdə ac və yoxsul qalsın. Biz də buna laqeyd olmamalıyıq. Xalqa xidmət edə bilmirəmsə, vəzifədə olmamalıyam". Pezeşkian ictimai gərginliyin zorakılıq yolu ilə deyil, qarşılıqlı anlaşma və siyasi dialoq vasitəsilə aradan qaldırılmasının vacibliyini vurğulamışdı. Lakin mühafizəkar dairələr etirazçılara qarşı sərt və radikal mövqedən çıxış edir, təhlükəsizlik qüvvələrinin atəş açması nəticəsində ölən və yaralananların sayı ilə bağlı məlumatlar artmaqdadır.

İranda artan etirazlar və güclənən xarici təzyiqlər fonunda Milli Təhlükəsizlik üzrə Ali Şuranın fövqəladə iclası keçirilib. Yerli mənbələrin məlumatına görə, toplantıda ölkənin üzləşdiyi risklər və mümkün inkişaf ssenariləri müzakirə olunub. Şura üzvləri mövcud vəziyyəti "yaşamaq uğrunda mübarizə" kimi dəyərləndirərək, etirazların minimum güc tətbiqi ilə necə nəzarətdə saxlanıla biləcəyini müzakirə ediblər. Hakimiyyət daxilində əsas məqsədin daxili sabitliyi qorumaq və vəziyyətin nəzarətdən çıxmasının qarşısını almaq olduğu bildirilir.

Eyni zamanda, iclasda mümkün eskalasiya riskləri, eləcə də xarici təhlükələrə verilə biləcək cavab variantları da gündəmə gətirilib. Müzakirələrin detalları açıqlanmasa da, prosesin İran rəhbərliyi üçün kritik mərhələyə daxil olduğu vurğulanır. Beynəlxalq müşahidəçilər isə İran ətrafında vəziyyətin daha da gərginləşə biləcəyini istisna etmirlər.

İrandakı son etirazlara ABŞ da müxtəlif səviyyələrdə münasibət bildirib və bu, həm siyasi-diplomatik, həm də insan hüquqları kontekstində formalaşıb. Dövlət Departamentinin

### ABŞ və Aİ-nin mövqeyi necədir?

nümayəndələri etirazçıların hökumətin iqtisadi siyasətinə narazılıqlarını "real ictimai qəzəbin təzahürü" kimi qiymətləndirərək, rəsmi Tehranı zorakılıqdan çəkinməyə və vətəndaşların haqlarını qorumağa çağırıblar. ABŞ Prezidenti Donald Tramp da açıqlamalarında İran hakimiyyətinin iqtisadi və sosial problemlərlə bağlı narazılıqları yetərincə anlamadığını qeyd edərək, etirazçıların sülhsevər nümayiş hüquqlarının qorunmasının vacib olduğunu vurğulayıb. Eyni zamanda Tramp administrasiyası bəyan edib ki, əgər Tehran sülhsevər nümayişləri zorakılıqla yatırmağa çalışarsa, ABŞ bu vəziyyətə adekvat reaksiyalar verə bilər və təzyiqləri artırmaqdan çəkinməyəcək.

Avropa İttifaqı ölkələri isə hadisələrə bir qədər fərqli, daha çox diplomatik və hüquqi çərçivədə reaksiya veriblər. Brüssel və bir sıra Aİ paytaxtları etirazçıların sülhsevər nümayiş hüquqlarına hörmət edilməsinin vacibliyini vurğulayıb və rəsmi Tehranı zorakılıqdan çəkinməyə çağırıblar. Eyni zamanda Avropa ölkələri İranın iqtisadi vəziyyətinin gərgin olduğunu, sosial narazılıqların artdığını və dialoqun vacib olduğunu qeyd edərək, vəziyyətin yalnız təhlükəsizlik tədbirləri ilə həll olunmayacağını ifadə ediblər. Bu yanaşma ABŞ-ın insan hüquqları tonuna bənzəyir, lakin Avropa ölkələri daha çox diplomatik kanallar və multilateral mexanizmlər vasitəsilə təsir göstərməyə çalışırlar.

Proseslərin hansı məcrada davam edəcəyinə gəlincə, əgər hökumət həm iqtisadi islahatlar aparıb, həm də sosial narazılıqları aradan qaldırmaq üçün tədbirlər görərsə, gərginlik müəyyən qədər azala bilər. Əks halda, qlobal proseslər fonunda gələcəkdə nələrin baş verəcəyini proqnozlaşdırmaq bir qədər çətindir.

**Nardar BAYRAMLI**

# Liberal dünya nizamının sonu

## Saxta dəyərlərin dəfn olunduğu tarixi dönüş ili

2025-ci il sona çatdı. Uzun illər "qaydalara əsaslanan dünya düzəni" adı altında bəşəriyyətə satılan ideoloji konstruksiya 2025-ci ilin sonunda öz ağırlığı altında çökdü, toz-duman içində dağıldı və geriyə yalnız dağıntılar, boş şüarlar və aldanmış xalqlar qoydu. Bu nizamın sonu qəfil baş vermədi. O, illərlə çürüdü, içəridən çatlaya-çatlaya irəlilədi, riyakarlıqla suvarıldı, ikiüzlü siyasətlə bəsləndi. Amma 2025-ci il onu gizlətməyə artıq imkan vermədi. Maskalar yırtıldı, dekorasiyalar yıxıldı, səhnənin ortasında hakimiyyət, güc və qorxu açıq şəkildə öz adları ilə çağırıldı.

### Qaydalar? Hansı qaydalar?

Liberal dünya nizamının əsas iddiası qaydalar idi. Amma bu qaydalar heç vaxt hamı üçün eyni olmayıb. Onlar güclülər üçün çevik, zəiflər üçün daşdan ağır olub. Beynəlxalq hüquq yalnız kimin üçünsə əlverişli olanda xatırlanıb, əks halda ayaqlar altına atılıb. İnsan hüquqları yalnız siyasi alət kimi işə yarayanda müqəddəsləşdirilib, faydasız olanda isə susdurulub. 2025-ci ildə isə artıq heç kim bu oyunu davam etdirmək istəmədi. Qaydaların özü ifşa olundu. Onların "ümumbəşəri" yox, seçici, "ədalətli" yox, hegemon, "sabitlik yaradan" yox, xaos istehsal edən mexanizm olduğu açıqlandı. Liberal nizamın dili ilə desək, sistem öz legitimliyini itirdi.

### Liberal imperiyanı məhv edən onun öz memarları oldu

Tarixin ironiyası ondadır ki, liberal dünya nizamını dağıdanlar onun düşmənləri deyil, onun yaradıcıları və qoruyucuları oldu. ABŞ - bu sistemin əsas memarı, ideoloji ixracatçısı və silahlı keşikçisi 2025-ci ildə faktiki olaraq bu nizamdan imtina etdi, daha doğrusu, onu açıq-aşkar parçalamağa başladı. Bu, bir üsyan deyildi. Bu, yorulmuş imperiyanın soyuq hesablaması idi. ABŞ anladı ki, "hamıya demokratiya", "hamıya təhlükəsizlik", "hamıya qayda" modeli artıq özünə baha başa gəlir. Bu yükdən xilas olmağın ən asan yolu qaydaların özünü aradan qaldırmaqdır. Beləliklə, liberal imperiya öz övladını boğaraq tarix səhnəsindən çəkilməyə başladı. "Mən səni yaratdım, mən də məhv edərəm" prinsipi 2025-ci ilin əsas geosiyasi düsturuna çevrildi.



### İnstitutlar çökdü, liderlər taxta çıxdı

Liberal nizam institutlara əsaslanırdı - beynəlxalq təşkilatlar, kollektiv mexanizmlər, prosedurlar, konsensuslar... 2025-ci ildə isə bu institutlar bir-birinin ardınca boş qabığa çevrildi. Onların yerini şəxsiyyətlər, instinktlər, impulslar və şəxsi ambisiyalar tutdu. Artıq qərarları komitələr yox, liderlərin əhvalı, psixoloji portreti, eqo səviyyəsi müəyyən edir. Diplomatiya yerini təhdidə, hüquq yerini güc nümayişinə, strategiya yerini improvizasiyaya verdi. Dünya siyasəti intellektual debat meydanından çıxıb emosional döyüş arenasına çevrildi. Bu isə o deməkdir ki, sabahkı dünya daha təhlükəli, daha qeyri-proqnozlaşdırılan və daha qəddar olacaq.

2025-ci il keçid ili olmadı, post-liberal dövrün rəsmi başlanğıcı oldu. Bu dövrdə artıq heç kim "dünya necə olmalıdır" sualını vermir. Hamı yalnız bir şeyi düşünür: "Mən bu xaosda necə sağ qalım?" Əməkdaşlıq yerini rəqabətə, inteqrasiya yerini fraqmentasiyaya, universal dəyərlər yerini sərt milli maraqlara verdi. Hər kəs öz qalasını tikir, öz divarını ucaldır, öz silahını itiləyir. Ən qorxulusu isə budur: bu yeni dövr hələ öz qaydalarını belə yazmayıb. Biz qaydasızlığın içində yaşayırıq. Qaydasızlıq isə tarixən ən qanlı, ən amansız mərhələlərin başlanğıcı olub.



### Köhnə dünya öldü, yenisi hələ doğulmayıb

2025-ci il bir həqiqəti bütün çılpaqlığı ilə göstərdi: köhnə dünya artıq yoxdur, yeni dünya isə hələ formalaşmayıb. Bu boşluq isə təhlükəlidir. Çünki tarix bizə öyrədib ki, belə boşluqlar adətən müharibə, dağıntı və kütləvi sarsıntılarla doldurulur. Liberal dünya nizamı özünü "tarixin sonu" elan etmişdi. Amma tarix onu yalançı çıxardı. Tarix heç vaxt bitmir. Sadəcə, bəzən hesab soruşur. 2026-cı il məhz bu hesabın açıldığı ildir.

Azərbaycan oxucusu üçün bu mənzərə yad deyil. Biz "beynəlxalq hüquq", "ərazi bütövlüyü", "status-kvo dəyişməzdir" kimi şüarların necə selektiv işlədiyini illərlə öz üzərimizdə sınamışıq. Qarabağ işğal altında olanda liberal dünya nizamı lal-kar olmuşdu. BMT qətnamələri kağız parçasına çevrilmişdi. "Qaydalar" güllə keçirməyən vitrin kimi yalnız bəzək funksiyası daşıyırdı. 2025-ci ildə isə bu riyakarlıq artıq gizlədilə bilmədi. ABŞ, Avropa İttifaqı, NATO açıq şəkildə etiraf etdi

### Qərbin və Avropanın ikiüzlülüyü: qayda yalnız zəiflər üçündür

ki, qaydalar marağa tabedir. Kim güclüdürsə, o haqlıdır. Kim zəifdirsə, ona "səbr", "dialoq" tövsiyə olunur. Bu, liberalizmin sonudur.

2025-ci ilin dərsi Azərbaycan üçün birmənalıdır: bu dünyada səni heç kim qorumur. Nə liberal nizam, nə beynəlxalq hüquq, nə də "qlobal vicdan". Səni yalnız öz gücün, öz ordun, öz siyasi iradən qoruyur. Qarşıdan gələn ildə yeni dünya daha amansız olacaq. Daha dürüst olacaq, daha açıq olacaq. Bu dünyada yalançı humanizm yox, sərt reallıq hökm sürəcək və bəlkə də bu, daha ədalətli olacaq. Çünki artıq heç kim bizə nağıl danışmayacaq.



*Kəramət QƏNBƏROV,*
*Beynəlxalq hüquq üzrə ekspert*

# Notr-Dam üzərində savaş

## Mədəni irs, siyasət və simvolizm niyə toqquşur?

15 aprel 2019-cu ildə Paris Notr-Dam kilsəsi yananda Fransa sadəcə bir memarlıq abidəsini yox, öz tarixi yaddaşının bir hissəsini itirdiyini düşündü. O gecə bütün dünya alov içində qalan qülləni izləyirdi. Bu, adi yanğın deyildi, Avropanın öz keçmişi ilə münasibətinin sarsıldığı an idi. Altı il sonra - 2025-ci ildə isə məlum oldu ki, Notr-Dam üçün əsas təhlükə alov yox, siyasi ambisiya və ideoloji müdaxilədir.

### "Bərpa" adı altında yenidən yazılan tarix

Rəsmi Parisin planı sadə səslənirdi: Notr-Dam bərpa olunacaq. Prezident Emmanuel Makron 2019-cu ilin aprelində çıxış edərək açıq demişdi: "Biz Notr-Damı 5 ilə bərpa edəcəyik və onu öz dövrümüzün möhürü ilə geri qaytaracağıq". Bu cümlə sonradan Fransa mətbuatında dəfələrlə sitat gətirildi, çünki problem məhz buradaydı: "öz dövrümüzün möhürü". 2024-2025-ci illərdə məlum oldu ki, hökumət və Paris arxiyepiskopluğu kilsənin cənub neflərində yerləşən, yanğından zərər görməmiş XIX əsrə aid altı vitrajın dəyişdirilməsini planlaşdırır. Onların yerinə müasir rəssam Klert Bure (Claire Buret) tərəfindən hazırlanmış vitrajlar qoyulmalı idi. Bu qərar Le Figaro, Le Monde, Liberation və La Croix qəzetlərində geniş müzakirə olundu, Fransa cəmiyyətini faktiki olaraq 2 düşərgəyə böldü.



Mübahisənin digər tərəfində Fransa elitasının ciddi hissəsi dayanırdı. Tarixçi və memarlıq irsi üzrə ekspert Aleksandr Gadi (Le Figaro, 12 yanvar 2025) açıq yazırdı: "Yan-

### Tarixçilər və memarlar həyəcan təbili çalırlar

ğından sağ çıxmış vitrajları sökmək vandalizmdir. Bu, restavrasiya deyil, ideoloji redaktədir". Məşhur memar Jan-Mişel Vilmott isə "France Inter" radiosundakı çıxışında belə demişdi: "Notr-Dam laboratoriya deyil, burada eksperiment aparmaq olmaz." Onun sözlərinə görə, Violle-le-Duc-un XIX əsrdə etdiyi dəyişikliklər belə öz dövrü üçün bərpa məntiqinə uyğun idi, siyasi nümayiş yox idi.

### Arxiyepiskop və prezident: simvol üzərində ittifaq

Paris arxiyepiskopu Loran Ulrix (Laurent Ulrich) layihəni müdafiə edərək 2024-cü ilin payızında "La Croix" qəzetinə müsahibəsində belə demişdi: "Notr-Dam canlı məkandır. O yalnız keçmişin muzeyi ola bilməz, müasir insan da bu məbədin bir hissəsi olmalıdır". Bu fikir dərhal siyasi kontekstə düşdü, çünki Emmanuel Makron da illərdir mədəniyyətin "müasir iz buraxmaq" funksiyasını vurğulayırdı. Onun Yelisey sarayındakı müşavirləri qeyri-rəsmi söhbətlərdə açıq etiraf edirdilər ki, Notr-Dam "V Respublikanın simvoluna" çevrilməlidir. Bu isə artıq bərpa yox, simvol uğrunda siyasi əməliyyat idi.

### Xalqın reaksiyası: 200 min imza və susmayan Paris

2025-ci ilin fevralında tarixçi Didye Rüknerin təşəbbüsü ilə vitrajların dəyişdirilməsinə qarşı onlayn petisiya başladıldı. Bir neçə həftə ərzində 200 mindən çox imza toplandı. Paris küçələrində sorğular aparan BFM TV-nin reportajında yaşlı parisli qadının dediyi cümlə geniş rezonans doğurdu: "Notr-Dam Makronun bioqrafiyası üçün fon deyil". Bu cümlə sosial şəbəkələrdə sitata çevrildi.

### Simvolizmin dərin qatları: niyə məhz vitrajlar?

Vitrajlar sadəcə şüşə deyil. Orta əsr Avropasında onlar xalq üçün Bibliya idi - oxumağı bilməyən insanlar üçün hekayə danışırdı. Onları dəyişmək, əslində, vizual yaddaşı dəyişməkdir. Mədəniyyətşünas Sofi Varon (Le Monde, mart 2025) yazırdı: "Vitrajlar işıqla yaddaş arasında körpüdür. Onları dəyişmək işığın ideoloji filtrdən keçməsi deməkdir". Bu, artıq sənət məsələsi deyil, hakimiyyətin tarix üzərində nəzarət cəhdidir. Mübahisə Fransa ilə məhdudlaşmır, Notr-Dam hadisəsi müasir Avropanın ümumi xəstəliyini üzə çıxarır: keçmişlə barışa bilməmək; tarixi irsi ya ideallaşdırmaq, ya da yenidən yazmaq ehtirası; siyasi liderlərin öz dövrlərini daş üzərində əbədiləşdirmək arzusu.

Avropa bu gün heykəlləri sökür, adları dəyişir, vitrajları yeniləyir. Amma sual budur: bu, gələcəyə baxışdır, yoxsa keçmişdən qaçış? Notr-Dam mübahisəsi göstərdi ki, mədəni irs toxunulmaz zona deyil, siyasi mübarizə meydanıdır. Amma bu meydanda hakimiyyət həmişə qalib gəlmir. Tarix yaddaşdır. Yaddaş isə zorla dəyişdiriləndə müqavimət yaradır. Paris bunu artıq görür, Avropa isə hələ də anlamağa çalışır. Notr-Damın daşları susur, amma onun ətrafında gedən mübahisə çox şey deyir.

### Tarix yaratmayan, amma tarixdə qalmaq istəyən prezident

Emmanuel Makron XXI əsr Avropa siyasətinin ən paradoksal fiqurlarından biridir. O özünü Fransa tarixinin böyük liderləri - de Qoll, Mitteran, hətta Napoleonla müqayisə etməyə çalışır, amma ortaya qoyduğu nəticə ilə bu ambisiyalar arasında uçurum var. Makronun problemi ondadır ki, tarix yazmaq əvəzinə, tarixdə görünmək istəyir. Notr-Dam məsələsi bu kompleksin ən çılpaq ifadəsidir. Sual isə sadədir: Makron nəylə yadda qaldı? 2017-ci ildə hakimiyyətə gələndə ona "Avropanın son ümidı", "liberalizmin yeni üzü", "gənc reformator" deyirdilər. 2025-ci ildən baxanda isə ortada bir sual qalır: Makron dünya siyasətində nəyi dəyişdi?

- Avropanı gücləndirdimi? Xeyr.
- Fransanı strateji liderə çevirdimi? Xeyr.
- Müharibələrin qarşısını aldımı? Xeyr.
- Yeni təhlükəsizlik arxitekturası qurdumu? Xeyr.

Əksinə:

- Fransa Afrikadan qovuldu (Mali, Burkina-Faso, Niger).
- Avropa ABŞ-dan daha da asılı vəziyyətə düşdü.
- Rusiya ilə dialoq tam iflasa uğradı.
- Ukrayna böhranında Fransa danışan, amma təsir etməyən ölkəyə çevrildi.

Danışmağına Makron danışdı, özü də çox danışdı. Amma tarix nitqlərlə yox, nəticələrlə yazılır.

### Mədəni irs siyasi bioqrafiyanın dekoru kimi

Makron özünü "qlobal vasitəçi" kimi təqdim etməyi sevir. O, Putinlə telefon danışığı apardı, Zelenski ilə şəkillər çəkdirdi, Baydenlə, sonralar isə Trampla qucaqlaşdı, Afrika liderləri ilə sammitlər keçirdi. Bəs nəticə? Le Monde 2024-cü ildə çox dəqiq yazmışdı: "Makron diplomatiyası jestlər üzərində qurulub, nəticələr üzərində yox". Fransa nə Rusiya-Ukrayna müharibəsində real təsir gücünə malik oldu, nə Yaxın Şərqdə söz sahibi kimi qaldı, nə də Avropanın təhlükəsizlik gündəmini müəyyənləşdirə bildi. Makronun diplomatiyası instaqram diplomatiyasıdır - kadr var, effekt yoxdur.

Onun ən ağır mirası Afrikadadır. Makronun dövründə Fransa faktiki olaraq Saheldən sıxışdırılıb çıxarıldı. Mali, Burkina-Faso, Niger - bir vaxtlar Parisin təsir zonasında olan ölkələr bir-bir Fransa qoşunlarını qovdu. Bu, sadəcə geosiyasi məğlubiyyət deyil, tarixi nüfuzun çökməsidir. Makron Afrikaya "bərabər tərəfdaşlıq" vəd edirdi, amma real siyasət dəyişmədi. Nəticədə Fransa orada nə etibarlı müttəfiq, nə də qorxulan güc kimi qaldı.

Makronun daxili siyasəti isə ayrıca mövzudur. "Sarı jiletlər" hərəkatı onun dövrünün simvoluna çevrildi. Pensiya islahatı Fransa cəmiyyətini iki yerə böldü. Polis zorakılığı, etirazların boğulması, parlamentdən yan keçilməsi - bunlar Makronun "liberal lider" portretinə uyğun gəlmirdi. Liberation açıq yazırdı: "Makron Fransa xalqı ilə danışmır, onu tərbiyə etməyə çalışır". Bu isə demokratik lider yox, texnokrat monoloqudur. Notr-Dam kompleksi - daş üzərində iz qoymaq ehtirası. Bütün bu siyasi nəticəsizlik fonunda Makron Fransa tarixinin simvoluna çevrilmiş tarixi abidəyə əl uzadır. Sual yenə qüvvəsindədir: "Sən neylədin ki, üstəlik Notr-Damda iz də buraxmaq istəyirsən?"

- De Qoll Fransa dövlətçiliyini xilas etdi.
- Mitteran yeni Avropanın siyasi memarlarından biri oldu.
- Pompidu Fransa mədəniyyətini dünyaya çıxardı.

Bəs Makron nə etdi? O, tarixə düşmək üçün tarixi dəyişməyə çalışır. Vitrajlar, simvollar, mədəni irs onun üçün siyasi CV-nin dekoruna çevrilir. Notr-Dam ondan ötrü müqəddəs məkan deyil, öz adını həkk etmək üçün platformadır. Bu isə sanballı dövlət xadiminin yox, ambisiyalı, amma nəticəsiz liderin davranışıdır. Tarix mesajı sevir, amma saxtasını qəbul etmir. Tarix boş iddianı heç kəsə bağışlamır. Daş üzərinə ad yazmaqla tarixə düşmək olmur; tarixə düşmək üçün əvvəlcə tarix yaratmaq lazımdır. Adı tarixə qızıl hərflərlə həkk olunmuş İlham Əliyev kimi. Makronun problemi ondadır ki, dövrünün böhranlarını həll etmədi, onları sadəcə estetikləşdirdi. Notr-Dam bu estetikləşdirmənin simvoludur. Emmanuel Makronun özünə verməli olduğu sual sadədir: mən Fransa və dünya üçün nə iş gördüm? Bu suala cavab yoxdursa, vitrajlar da köməyə çatmayacaq. Çünki tarix şüşə üzərinə yazılmır. Tarix xalqların taleyindən yaranır.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN







# Saxta ifadələrlə qurulan istintaq...

## Söz hər zaman qalıcıdır!

### Mikayıl Müşfiq bunu həyatı bahasına sübut etdi

*Yeganə*

Yanvarın 6-sı xalqın unudulmaz şairi Mikayıl Müşfiqin vəfat günüdür. Əslində "vəfat" demək yetərsizdir, bu gün sözün, gəncliyin və azad düşüncənin susdurulduğu gündür. Amma tarix göstərdi ki, susdurulan səs yox olmadı, əksinə, zaman içindən daha gur səslə qayıtdı...

Mikayıl Müşfiq XX əsr Azərbaycan poeziyasının ən işıqlı simalarından biri idi. Onun şeirlərində həyat sevgisi, təbiətin saflığı, insanın azad nəfəsi vardı. O, poeziyanı qorxuya yox, ümidə söykəyirdi.

Mərhum şair əslən Xızı rayonundan olub. İbtidai təhsilini inqilabdan əvvəl rus-tatar məktəbində alıb. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Bakı darülmüəllimində və 12 saylı II dərəcəli məktəbdə oxuyub. Azərbaycan Dövlət Darülfününun dil və ədəbiyyat fakültəsini bitirib. Əmək fəaliyyətinə pedaqoq kimi başlayıb. Bakı orta məktəblərində yeddi il müəllimlik edib.

Poetik yaradıcılığa 1926-cı ildə "Gənc işçi" qəzetində çap etdirdiyi "Bir gün" şeir ilə başlayıb. Bundan sonra dövri mətbuatda müntəzəm çıxış edib. İlk kitabı - "Küləklər" 1930-cu ildə nəşr olunub.

M.Müşfiq bədii tərcümə ilə də ciddi məşğul olub. 1930-1937-ci illərdə onun 5 tərcümə kitabı nəşr edilib. Bunlar A.S.Puşkinin "Qaraçılar" (Ş.Abbasovla birlikdə),Taras Şevçenkonun "Kobzar"(Əhməd Cavadla birlikdə),Yegişe Çarensin "Şeirlər", S.Y.Marşakın "Huşsuza bax,huşsuza", M.F.Axundovun "A.S.Puşkinin ölümünə şərq poeması" kitablarıdır.

**Mikayıl Müşfiq niyə öldürülmüşdü?**

Bu sual təkcə bir şairin faciəli taleyini deyil, bütöv bir dövrün - qorxu, yalan və zorakılıq üzərində qurulmuş totalitar sistemin mahiyyətini açır. Müşfiq güllələnəndə cəmi 29 yaşı vardı. Onu öldürən isə bir güllə yox, sözə düşmən olan bir rejim idi.

1930-cu illərin sonları Sovet imperiyasının ən qaranlıq səhifələrindən biri idi. "Böyük terror" adlanan bu dövrdə minlərlə ziyalı, alim, yazıçı və şair "xalq düşməni" damğası ilə məhv edildi. Mikayıl Müşfiq də həmin qurbanlardan biri oldu. Rəsmi ittihamlar tanış idi: millətçilik, pantürkizm, antisovet düşüncə, "ideoloji azğınlıq". Amma bu ittihamların heç biri gerçək deyildi. Gerçək olan yalnız bir şey idi: Müşfiq azad düşünürdü...



Müşfiqin poeziyası həyat eşqi ilə dolu idi. O, sevgini, təbiəti, insanın daxili azadlığını yazırdı. Onun misralarında qorxu yox idi, itaət yox idi. Totalitar sistem üçün isə ən təhlükəlisi silahlanmış insan yox, azad düşünən insan idi. Çünki azad fikir zəncirləri sındıra bilərdi. Müşfiq də məhz bu "təhlükəni" daşıyırdı.

Onun şeirlərində milli ruh açıq şüarlarla deyil, incə duyğularla ifadə olunurdu. Bu isə senzuranın daha çox qorxduğu məqam idi. Çünki zorla susdurula bilməyən, oxucunun qəlbinə yol tapan poeziya rejim üçün ölümcül idi. Müşfiqin dili sadə idi, amma təsiri dərin. O, insanlara yaşamağı, sevməyi, düşünməyi xatırladırdı. Bu isə qorxu üzərində qurulmuş sistem üçün bağışlanmaz "cinayət" idi.

1937-ci ildə Müşfiq həbs olundu. İstintaq saxta ifadələr, məcburi etiraflar üzərində quruldu. O dövrdə həqiqətin heç bir dəyəri yox idi, hökm əvvəlcədən verilmişdi. 1938-ci ilin 6 yanvarında Mikayıl Müşfiq gizli şəkildə güllələndi. Onun məzarı belə uzun illər naməlum qaldı. Rejim təkcə şairi yox, xatirəni də silmək istəyirdi.

Amma tarix göstərdi ki, güllə sözə qalib gələ bilmir. Müşfiqin adı qadağan edilsə də, şeirləri yaddaşlardan silinmədi. O, fiziki olaraq öldürüldü, amma mənəvi olaraq yaşadı. Bu gün Müşfiq təkcə repressiya qurbanı kimi yox, azad sözün simvolu kimi xatırlanır.

Mikayıl Müşfiq ona görə öldürüldü ki, yalanla barışmadı. Ona görə öldürüldü ki, qorxmadı. Ona görə öldürüldü ki, şeir yazmağı silah daşımaqdan daha təhlükəli idi. Onun taleyi bizə bir həqiqəti xatırladır: zalım rejimlər müvəqqətidir, amma söz qalıcıdır. Müşfiq bunu öz həyatı bahasına sübut etdi...

*İdman*

## Bakı bu il 3 beynəlxalq boks turnirinə ev sahibliyi edəcək




Azərbaycan 2026-cı ildə boks üzrə 3 beynəlxalq turnirə ev sahibliyi edəcək.

Bu barədə AZƏRTAC-a Azərbaycan Boks Federasiyasından məlumat verilib.

Bildirilib ki, bunlar aprelin 2-dən 8-dək keçiriləcək Böyük İpək Yolu turniri (böyüklər arasında), 2-8 may tarixlərində "Heydər Əliyev Kuboku-2026" (U-17) və 4-10 dekabrda 19 yaşadək boksçular arasında Abbas Ağalarovun xatirəsinə həsr olunan yarışdır.

Hər üç turnir Bakı Boks Mərkəzində təşkil olunacaq.

## Azərbaycan Premyer Liqasında güc bölgüsü

Misli Premyer Liqasının ilk yarısında evdə və səfərdə ən çox xal toplayan komandalar bəlli olub.

"Report"un araşdırmasına görə, doğma meydanda qazanılan xallara görə "Qarabağ" liderdir.

Ağdam təmsilçisi 9 oyunda hesabına 20 xal yazdırıb. "Zirə" (9 oyun), "Sabah" və "Araz-Naxçıvan" (hər ikisi 8 oyun) 17 xalla növbəti sıralarda yer alıblar.

"Sumqayıt" (9 oyun) 13 xalla beşinci olubsa, "Turan Tovuz" və "Şamaxı" (hər ikisi 7 oyun, 10 xal) 6-7-ci yerləri bölüşdürüblər. Evdəki 8 qarşılaşmada 8 xal qazanan "Neftçi" 8-ci pillədə qərarlaşıb. "Qəbələ" 6 xalla 9-cu, "İmişli" 4 xalla 10-cu, "Kəpəz" 3 xalla (hamısı 7 oyun) 11-ci olub. Çempionatın autsayderi "Karvan-Yevlax" 1 xalla sonuncudur.




Səfərdə əldə olunan xallara görə "Sabah" birincidir. Valdas Dambrauskasın baş məşqçisi olduğu kollektiv 8 görüşdə 20 xal toplayıb. "Turan Tovuz" (8 oyun) 17 xalla 2-ci, "Qarabağ" (7 oyun) 16 xalla 3-cü sırada yer alıb.

"Sumqayıt" (7 oyun) 14 xalla 4-cü, "İmişli" (9 oyun) 13 xalla 5-ci, "Neftçi" (8 oyun) 12 xalla 6-cı, "Zirə" (7 oyun) 11 xalla 7-ci, "Şamaxı" (9 oyun) 10 xalla 8-ci, "Araz-Naxçıvan" (8 oyun) 9 xalla 9-cu, "Kəpəz" (9 oyun) 6 xalla 10-cu, "Karvan-Yevlax" (7 oyun) 5 xalla 11-ci, "Qəbələ" (8 oyun) 2 xalla 12-ci pillədədir.

Qeyd edək ki, 16 turdan sonra "Sabah" 37 xalla turnir cədvəlinə başçılıq edir. "Qarabağ" 36 xalla ikinci, "Zirə" 28 xalla üçüncüdür. Növbəti sıralarda "Turan Tovuz", "Sumqayıt" (hər ikisi 27), "Araz-Naxçıvan" (26), "Neftçi" (20), "Şamaxı" (20), "İmişli" (17), "Kəpəz" (9), "Qəbələ" (8) və "Karvan-Yevlax" (6) qərarlaşıb.

XIV turun "Qəbələ" - "Turan Tovuz" qarşılaşması duman səbəbindən təxirə salınıb.



## Uzun gəzinti nəyə faydalıdır?

Madrid Avropa Universitetinin alimləri müəyyən ediblər ki, gün ərzində bir neçə qısa gəzinti ilə müqayisədə bir uzun gəzinti ürək sağlamlığı üçün daha faydalıdır.

AZƏRTAC xəbər verir ki, tədqiqatın nəticələri "Annals of Internal Medicine" jurnalında dərc olunub.

Alimlər fiziki aktivliklə bağlı məlumatları təhlil edərək onları ölüm halları və ürək-damar hadisələri ilə müqayisə ediblər. Araşdırmaya gündə orta hesabla 8 min addımdan az yeriyən və tədqiqatın əvvəlində ürək-damar xəstəlikləri və ya xərçəng tarixçəsi olmayan şəxslər daxil edilib.

Təxminən 10 il ərzində 735 ölüm halı və 3 min 119 ürək-damar hadisəsi, o cümlədən infarkt və insult qeydə alınıb. Təhlil göstərib ki, yeriş vərdişləri mühüm əhəmiyyət daşıyır. Ən yüksək risk fiziki aktivliyi çox qısamüddətli hərəkətlərlə məhdudlaşan şəxslərdə müşahidə olunub. Beş dəqiqədən az davam edən gəzintilər ölüm hallarının və ürək-damar ağırlaşmalarının daha çox qeydə alınması ilə əlaqələndirilib.

Ən aşağı risk isə müntəzəm olaraq ən azı 15 dəqiqə gəzən iştirakçılarda müşahidə edilib. Bu qrupda ölüm və ürək-damar hadisələrinin nisbəti əhəmiyyətli dərəcədə aşağı olub. Tədqiqat müəllifləri qeyd edirlər ki, bəzi hallarda qısa gəzintilər araşdırma zamanı aşkar edilməyən əsas sağlamlıq problemlərinin nəticəsi ola bilər.

## Yeniyetmələrdə diqqət problemi...

Aktiv sosial şəbəkə istifadəsi yeniyetmələrdə diqqət problemlərinin tədricən artması ilə əlaqələndirilir, video oyunlar və video izləmə isə bu təsiri göstərmir. Alimlər bu nəticəyə 8 000-dən çox yeniyetmə üzərində apardıqları uzunmüddətli tədqiqatdan sonra gəliblər.

Alimlər bu barədə "Medical Xpress" jurnalında bildiriblər.

Tədqiqatda 10-14 yaşlı izlənilən 8 000-dən çox yeniyetmə iştirak edib. İştirakçılardan müntəzəm olaraq rəqəmsal vərdişləri barədə soruşulub, ekran fəaliyyəti üç kateqoriyaya bölünüb: video oyunlar, video izləmə və sosial şəbəkə.

Alimlər diqqət çatışmazlığı hiperaktivlik pozğunluğunun iki əsas simptomunu - diqqətsizlik və hiperaktivlikdə dəyişiklikləri təhlil ediblər. Əsas nəticə sosial şəbəkə istifadəsinin diqqətsizlikdə tədricən artımla əlaqəli olması idi. Bununla belə video oyunlar və video izləmə statistik cəhətdən əhəmiyyətli mənfi təsir göstərməyib.

Müəlliflər həmçinin əks hipotezi sınaqdan keçiriblər: əsas diqqətsizlik sosial media istifadəsinin artmasına səbəb ola bilərmi? Təhlil bu əlaqəni təsdiqləməyib: bu, birtərəfli idi - sosial media diqqətin daha da azalmasını proqnozlaşdırıb. Nəticələr diqqət çatışmazlığı və hiperaktivlik sindromuna genetik meyl və ailə gəliri nəzərə alındıqdan sonra belə, qorunub saxlanılıb.

Tədqiqatçıların fikrincə, bu, ekranların zərərli təsirləri ilə bağlı deyil. Video oyunların və videoların təsirinin olmaması, bütün rəqəmsal məzmunun dopamin mexanizmləri vasitəsilə beyinə bərabər təsir göstərdiyi məşhur nəzəriyyəni şübhə altına alır. Mümkün bir izahat olaraq, alimlər sosial medianın daimi yayındırıcı amillərinə - bildirişlərə, mesajların gözlənməsinə və diqqətin daimi dəyişməsinə işarə edirlər.



Bundan fərqli olaraq, video oyunlar adətən məhdud seanslarda oynanılır və tək bir tapşırıq üzərində davamlı diqqət tələb edir. Sosial şəbəkələr isə əksinə, istifadəçini gün ərzində müşayiət edir və daimi idrak səs-küyü yaradır.

Qeyd olunur ki, sosial şəbəkənin fərdi səviyyədə təsiri güclü deyil - normaldan klinik diqqət çatışmazlığı və hiperaktivlik sindromuna kəskin keçidə səbəb olmur. Lakin geniş səviyyədə konsentrasiyanın kiçik bir azalması belə diaqnozların əhəmiyyətli dərəcədə artmasına səbəb ola bilər. Nəzəri olaraq, sosial mediada gündə bir saat sərf olunan orta vaxtın artması diqqət çatışmazlığı və hiperaktivlik sindromu diaqnozlarını təxminən 30 faiz artıra bilər.

Son iyirmi ildə sosial şəbəkədən istifadə kəskin artıb. 20 il əvvəl bu, demək olar ki, mövcud deyildisə, bu gün yeniyetmələr gündə təxminən beş saat onlayn vaxt keçirirlər, əsasən sosial media platformalarında. Özlərini "daim onlayn" hesab edən yeniyetmələrin nisbəti 2015-ci ildəki 24 faizdən 2023-cü ildə 46 faizə yüksəlib.

Bu fonda müəlliflər qeyd edirlər ki, diqqət çatışmazlığı və hiperaktivlik sindromu diaqnozlarının artması yalnız məlumatlılığın artması və stiqmanın azalması ilə izah edilə bilməz. Onların fikrincə, diqqətsizlikdə də real artım var. Mümkün cavab olaraq, onlar 2025-ci ilin dekabr ayından etibarən sosial platformalardan yalnız 16 yaşdan yuxarı istifadəçilərə böyük cərimələr təhlükəsi ilə giriş imkanı təmin etmək tələb olunacaq Avstraliya təcrübəsini misal gətirirlər.

## Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyası Səbail Rayon Təşkilatının kollektivi "Mikayıl Useynov pr.28" (Azərbaycan Xalça Muzeyi) Ərazi Partiya Təşkilatının sədri

**AYGÜN ABBASOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 3793
Sifariş: 08
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova